“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



Qəzet 1932-ci ildən çıxır № 5-6 (6797-6798) 10 may 2018-ci il Cəbrayıl RİH-nin orqanı

# 10 may - Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümüdür

# 9 May faşizm üzərində Qələbədən 73 il keçir

## Ulu Öndərin xatirəsi anıldı

10 may 2018-ci il tarixdə 4 saylı qəsəbə ərazisindəki Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar bayram tədbiri keçirildi.

Tədbir iştirakçıları əvvəlcə parkda Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstəsi qoyaraq ruhunu ehtiramla yad etdilər.

Rayonun mədəniyyət işçilərinin, orta məktəb şagirdlərinin və uşaq bağçalarının Gül bayramı ilə əlaqədar parkda təşkil etdiyi əl işlərindən ibarət sərgiyə baxış keçirildi.



Parkın ərazisində davam etdirilən bayram tədbirində rayonun mədəniyyət işçiləri maraqlı konsert proqramı ilə çıxış etdilər.

Həmyerlilərimizdən Həsən Cəbrayıllı, Vüsal Zamanov, Rəhman İsgəndərov, Çinarə Məhərrəmova, Zöhrab Baxşəliyev, Gülnarə Məmmədova, Zəminə Hüseynova, Xankişi Xankişiyev bir-birindən gözəl ifaları ilə tamaşaçılara xoş ovqat bəxş etdilər.

**“XUDAFƏRİN”**









## Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur



Hər bir kəs ilk növbədə öz xalqı, vətəni ilə tanınır. Elə nadir insanlar da var ki, onlar mənsub olduğu xalqı, vətəni tanıdır, şöhrətləndirirlər. Belə insanlar seçilmiş şəxsiyyətlərdir və xüsusi missiyası olan liderlərdir. Ümummilli Liderimiz Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.

Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan Milli dövlətçiliyini bütün təhlükələrdən xilas edib qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət kimi Heydər Əliyevin həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edir. Təsadüfi deyildir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər tariximizin qızıl dövrü kimi yaddaşlara həkk olunmuşdur.

Bu gün ölkəmizin hər yerində bu böyük şəxsiyyətin 95 illiyi xalqın yüksək ehtiramı ilə qeyd edilir. Hər birimiz Heydər Əliyevin Vətən və millət qarşısında misilsiz tarixi xidmətlərini bir daha minnətdarlıq hissi ilə xatırlayırıq.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xalqı və milləti qarşısında əvəzolunmaz fəaliyyət göstərməklə bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına layəqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artırılmasında onun müstəsna xidmətləri var. Ulu Öndər Heydər Əliyev özünə qədər Azərbaycana rəhbərlik etmiş bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, parlaq zəkası, müdrikliyi və tükənməz enerjisi ilə ən yeni tarixin parlaq səhifələrini yaratmışdır. Qəhrəmanlığın, hünərin ən möhtəşəmi Vətən naminə edildiyindən, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdəki tarixi ximətləri vətən və dövlət, millət və xalq naminə göstərilən fədakarlıqların fövqündə dayanır.

Otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və vətənini canından artıq sevən ən böyük azərbaycanlı Heydər Əliyevlə bağlı olmuşdur. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdardır. Bütün həyatını və siyasi fəaliyyətini tarixi keçmişi və zəngin mədəniyyəti ilə fəxr etdiyi xalqının və vətəninin tərəqqisinə həsr etmiş Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaraq sürətlə inkişaf etmişdir. Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan Ümummilli Liderin fəaliyyəti təkcə Azərbaycan üçün deyil, həm də postsovet məkanı üçün mühüm əhəmiyyət daşımaqla yanaşı, dünya miqyasında gedən proseslərə təsir göstərmişdir.

Ulu Öndər Heydər Əliyev hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycançılıq istiqamətində çox böyük, həm də qətiyyətli addımlar atmışdı. Azərbaycan tarixinin, dilinin, ədəbiyyatının, mədəniyyətinin hərtərəfli şəkildə və dərindən öyrənilməsi, təbliği, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, milli şüurun dirçəlişi, ümumən, bütün sahələrdə azərbaycançılıq amalının möhkəm, etibarlı bazasının formalaşdırılması yönündə həyata keçirilən qətiyyətli tədbirlər məhz onun parlaq dühası, ardıcıl səyləri sayəsində reallaşmışdır.

Milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlməsi sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinin dirçəlişi üçün zəmin oldu. Bu, xalqın ruhuna dərindən bələd olan respublika rəhbərinin təşəbbüskarlığının və uzaqgörənliyinin nəticəsi idi. Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, hüquqi və sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi. Ölkəmizin indiki siyasi və iqtisadi müstəqilliyi, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-1980-ci illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

(Ardı səh. 2-də)

# Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur

(Əvvəli səh. 1-də)

1991-ci ildə müstəqillik qazanan Azərbaycanın iqtisadi potensialı bir sıra dövlətlərdə qibtə hissi doğururdu. Lakin müstəqiliyin ilk illərində iqtidarda olan antimilli və naşı qüvvələrin yeritdiyi yarıtmaz siyasət üzündən respublikanın hər bir vətəndaşının arzuladığı hüquqi, demokratik və qüdrətli dövlətin yaradılması, sadəcə bir xoş istək, bir ideya olaraq qalırdı. 1991-1993-cü illərdə Azərbaycanda iqtisadi tənəzzülün güclənməsi, siyasi böhranın dərinləşməsi, cəbhə bölgəsindəki hərbi uğursuzluqlar və vətəndaş qarşıdurması nəticəsində ölkə parçalanma həddinə çatmışdı, Qanunçuluq, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində acınacaqlı vəziyyət yaranmışdı.

1993-cü ildə xalq ölkəni bu vəziyyətdən çıxara biləcək hərtərəfli potensialı və müdrikliyi yeganə lider Heydər Əliyevin şəxsində görürdü. Bu sarsıntı və təlatümlər təsdiqlədi ki, yalnız polad iradəyə, mükəmməl idarəçilk keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq və yaşatmaq kimi ağır tarixi missiyanın öhdəsindən gələ bilər. Hakimiyyət böhranının yaşandığı və ölkədə anarxiyanın tüğyan etdiyi, ölkənin vətənaş müharibəsi astanasında və dövlət müstqəilliyinin itirilməsi təhlükəsi qarşısında qaldığı bir zamanda 1993-cü ilin iyununda xalqın təkidi, tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyini iflasdan, fəlakətdən qurtardı, onu xain əllərdən, çevriliş, qiyam cəhdlərindən hifz edərək dövlətçiliyi möhkəmləndirdi, dövlət və hakimiyyət böhranına son qoydu, cəbhədə atəşkəs elan edildi, vətəndaş müharibəsinin qarşısı alındı, ölkəni dirçəliş və inkişafa doğru yönəltdi, xalqın itirilmiş inamını özünə qaytardı, gələcəyə ümidini artırdı. Ümummilli lider: "Mən buraya vəzifə üçün gəlməmişəm. Mən böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim" deyərək ömrünün qalan hissəsini də xalqının xilasına həsr edəcəyini bildirmişdi.

Xalqımız qarşıya çıxan hər hansı bir çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə gördü. Bu, on illərlə formalaşmış doğru və düzgün fikirdir. Ölkəmizin fəxri, milli iftixarımız və liderimiz olan Heydər Əliyev bütün problemlərin həll olunmasının öhdəsindən yüksək səviyyədə gəlmişdir. Çünki o, bir neçə on il bundan sonra görəcək işləri bu gün həyata keçirməyi bacaran nadir keyfiyyətlərə malik uzaqgörən siyasətçi və təcrübəli dövlət xadimi idi. Onun siyasəti ölçülüb-biçilmiş, gələcəyə ünvanlanmış siyasət idi.

Ulu Öndər hakimiyyətə gəldikdən sonra ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi ümummilli liderin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir. Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən islahatların ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər olmuşdur. Bu istiqamətdə Böyük öndər Heydər Əliyevin ilk qərarlarından biri də 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv olunması haqqında olmuşdur.

Demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmış müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkül tapması, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin misilsiz tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır. Onun həyata keçirdiyi genişmiqyaslı milli dövlət quruculuğu proqramı ölkəmizin bütün sahələrdə qazandığı nailiyyətlərin konseptual əsası, onun həmişəyaşar ideyaları müstəqil Azərbaycan dövlətinin və xalqının xoşbəxt gələcəyinin qarantı olmuşdur. Müstəqil Azərbaycanın Əsas Qanununun-Konstitusiyanın müəllifi kimi Ulu öndər Heydər Əliyev dövlət hakimiyyətinin demokratik prinsiplər əsasında bölünməsinə, beynəlxalq standartlara uyğun hüquq normalarının və qanunvericilik bazasının yaradılmasına, müasir idarəetmə üsullarının tətbiqinə nail olmuşdur.

Müstəqil Azərbaycan Prokurorluğunun dövlətçilik maraqlarına, qanunun aliliyinin və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması Heydər Əliyevin dövlətçilik siyasəti, qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur. Prokurorluqda aparılan islahatların əsas məramı bu orqanın səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi daşımaqla, Ulu öndər Heydər Əliyevin nəzarəti və dəstəyi ilə görülən məqsədyönlü tədbirlər nəticəsində prokurorluq orqanlarında köklü islahatlar və struktur dəyişiklikləri həyata keçirilmiş, fəaliyyət üçün tələb olunan lazımi hüquqi baza yaradılmışdır. Prokurorluq orqanları demokratik istiqamətdə tamamilə yenidən formalaşmış, vaxtında aparılmış hüquqi islahatlar və prokurorluq orqanlarının işinin yenidən qurulması nəticəsində Azərbaycan Respublikasında dövrün və zamanın tələbinə uyğun yeni keyfiyyətə xas olan sağlam prokurorluq sistemi yaradılmışdır. Prokurorluq orqanlarının vəzifə və səlahiyyətlərində azad, demokratik cəmiyyətə və beynəlxalq standartlara uyğun əsaslı dəyişikliklər edilmiş və bunları tənzimləyən hüquqi aktlar qəbul olunmuşdur. Bütün bunların nəticəsində Azərbaycan Respublikası Prokurorluğu orqanları cinayətkarlığa qarşı mübarizədə dövlətçilik maraqlarının, insan və vətəndaş hüquqları və azadlıqlarının qorunmasına xidmət edən demokratik inkişaf yolu seçmiş bir sistemə çevrilmişdir.

Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha sıx birləşirlər. Cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artırır.

Bizim isə ən böyük vəzifəmiz Ulu öndər Heydər Əliyevin ideyalarının inkişafı və Azərbaycan tarixinin yeni şanlı səhifələrinin yazılması naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, ona layiqli yardımçı olmaqdır.

**Maarif HÜSEYNOV,**
**Cəbrayıl rayon prokuroru,**
**ədliyyə müşaviri**



# "Vətən aşiqi" kitabının təqdimatı

Bu günlərdə "Azərkitab" kompleksinin təqdimat zalında yazıçı-publisist Nəriman Mahmudovun şəhid Həsən Həsənovdan bəhs edən "Vətən aşiqi" kitabının təqdimatı keçirildi.

Tədbiri giriş sözü ilə "Kredo" qəzetinin baş redaktoru, şair-publisist Əlirza Xələfli açdı. O, kitabın müəllifi Nəriman Mahmudovun maraqlı bədii və publisist yazıları ilə Azərbaycanda özünə dərin oxucu sevgisi qazanmasından danışdıqdan sonra fikirlərini təqdimatı keçirilən "Vətən aşiqi" kitabının üstünə gətirdi. Qeyd etdi ki, bu kitabda Kəlbəcərdə Dilqəm və Şahbazla birgə Vətən torpağını ziyarətə getmiş və orada ermənilər tərəfindən qətlə yetirilmiş Cəbrayıllı şəhid Həsən Həsənovun vətən sevgisindən bəhs olunur.

Ə. Xələfli kitabın ictimai əhəmiyyətilə bağlı geniş açıqlama verdikdən sonra sözü digər tədbir iştirakçılarına verdi.

Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının birinci müavini, YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev, yazıçı, millət vəkili Aqil Abbas və başqaları çıxışlarında şəhid Həsən Həsənovun xatirəsi işığında qələmə alınmış kitab haqqında dəyərli fikirlər səsləndirdilər.

Tədbirdə Həsən Həsənov haqqında qısametrajlı videofilm də nümayiş olundu.

Tədbirin aparıcısı Ə. Xələfli "Vətən aşiqi" kitabının müəllifinə söz verdi.

Nəriman Mahmud tədbir iştirakçılarına və çıxışçılara üzünü tutaraq zəhmət çəkib gəldiklərinə görə və dəyərli fikirlər söylədiklərinə görə minnətdarlıq duyğularını çatdırdı.

**İsmayıl İsmayılov**

# DƏNLİ VƏ TEXNİKİ BİTKİLƏRİN YANĞIN TƏHLÜKƏSİZLİYİ

Dənli və texniki bitkilərin yetişdirilməsi, tədarükü əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət kəsb etdiyindən ölkəmizdə bu sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır. Təsadüfi deyildir ki, son dövrlər bu istiqamətdə, xüsusən də taxıl tədarükünün artırılması, əhalinin ərzaqla etibarlı təminatı ilə bağlı dövlət başçımız, hökumət tərəfindən mühüm qərarlar qəbul edilmişdir.

Dənli və texniki bitkilərin, o cümlədən taxıl tədarükünün artırılması ilə bağlı qarşıya qoyulan vəzifələrdən biri də bu strateji əhəmiyyətli məhsulların yanğından qorunması, biçin dövründə yanğın təhlükəsizliyi tədbirlərinin düzgün həyata keçirilməsidir.

Biçin dövründə-zəmilərin yaşıl örpəyinin qızılı donla əvəz olunduğu, kombaynların sahələrə çıxdığı, yeni taxıl yığımı, mal-qara üçün silos, senaj, quru ot tədarükü görüldüyü mövsümdə müxtəlif dənli və texniki bitkilərin, o cümlədən taxılın, həmçinin qaba və şirəli yemlərin yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunması çox vacib məsələdir.

Bu yazımızda məhz həmin qaydalardan-dənli və texniki bitkilərin yığılmasına hazırlıq, məhsul yığımı, onların daşınması və tədarük olunması dövründə yanğın təhlükəsizliyilə bağlı, həmçinin yanğın baş verən zaman hansı zəruri tədbirlərin həyata keçirilməsindən söhbət açılır.

**Biçinə hazırlıq dövründə yanğın təhlükəsizliyi ilə əlaqədar hansı tədbirlər həyata keçirilməlidir?**

Dənli və texniki bitkilərin yığımı dövründə mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfatda onun rəhbəri tabeliyindəki obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Taxıl və ot yığımına başlamazdan əvvəl bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfatı texnikasını yanğına qarşı hazırlamalı, onlar ilkin odsöndürmə vasitələri ilə tam təmin edilməlidirlər. Dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyinə nəzarət etmək üçün əmrlə cavabdeh şəxslər təyin edilməlidir.

Məhsul yığımında iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi proqram üzrə yanğına qarşı təlimat keçməlidir. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən texnikanın hamısı biçinə başlamazdan əvvəl yanğına qarşı texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab verməleri barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdır.

Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda şum traktorları mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir. Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədi ilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir.

*(Ardı səh. 8-də)*

## Azərbaycan Xalq Cümhuriyyəti -100

**Azərbaycan Xalq Cümhuriyyəti - Azərbaycan xalqının Çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi nəticəsində, Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanda yaranmış müstəqil dövlət və Müsəlman Şərqində ilk parlamentli respublikasıdır. Xalq Cümhuriyyətinin yaradılmasında və ona rəhbərlik edilməsində M.Ə.Rəsulzadənin, F.Xoyskinin, N.Yusifbəylinin, Ə.Topçubaşovun, X.Xasməmmədovun, C.Hacınskinin, S.Mehmandarovun və başqalarının çox böyük rolu olmuşdur.**

# ŞƏRQDƏN DOĞAN GÜNƏŞ



1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olmuşdur. Həmin tarix Respublika günü kimi təntənə ilə qeyd edilir. Respublika günü-1918-ci il mayın 28-də müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. 1990-cı ildən Respublika günü dövlət bayramı kimi qeyd edilir.

Prezident İlham Əliyev 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan



edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda 1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş verdiyi, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı bildirilir. Qeyd edilir ki, cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb.

Sərəncamda bildirilir ki, 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək 23 ay ərzində gördüyü mühüm tədbirlərə və islahatlara qısa nəzər salaq.

May ayının 30-da Müvəqqəti hökumətin başçısı müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında məlumatı radioteleqrafla xarici dövlətlərin başçılarına bildirdi. AXC-nin xarici siyasətdə ilk uğurlu addımı iyunun 4-də Batumda Osmanlı dövləti ilə "Sülh və dostluq" müqaviləsinin imzalanması oldu. Bu müqavilə ilə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət Osmanlı dövləti oldu.

1918-ci il sentyabrın 15-də Azərbaycan ordusu və Nuru paşanın başçılığı ilə Osmanlı qoşunları Bakıya daxil oldular. Azərbaycanlı əhali onları sevinclə, əsl xilaskar kimi qarşıladı. Bakı işğaldan azad edildi.

AXC-nin Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dili dövlət dili elan edildi.

1918-ci il iyunun 24-də hökumətin Fərmanı ilə üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əks edilmiş qırmızı parçadan hazırlanmış dövlət bayrağı qəbul edildi. Noyabr ayının 9-da həmin bayraq göy, qırmızı və yaşıl rənglərdən ibarət, üzərində ağ aypara və səkkizguşəli ulduz əksi olan üçrəngli bayraqla əvəz edildi. Bu bayraq özündə Türk milli mədəniyyətini, müasir Avropa demokratiyasını və İslam sivilizasiyasını özündə təcəssüm etdirir.



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk təsis iclası 1918-ci il dekabr ayının 7-də Bakıda Tağıyevin qız məktəbində oldu. Azərbaycan parlamentinin qanunvericilik və mərkəzi dövlət orqanlarını formalaşdırmaq, onların səlahiyyətini müəyyən etmək funksiyasından başqa bu və ya digər orqanın hesabatını dinləyib, onlar haqqında müvafiq qərar qəbul etmək, eləcə də ali dövlət nəzarətini həyata keçirmək funksiyaları var idi.

AXC hökuməti Qarabağı erməni işğalından qorumaq üçün qətiyyətli addımlar atdı. 1919-cu il yanvarın 15-də Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət Qarabağ general-qubernatorluğu yaratdı. Xosrov bəy Sultanov general-qubernator təyin edildi. Xosrov bəyin qətiyyətli tədbirləri nəticəsində Andranikin və digər erməni qüvvələrinin Qarabağa quldur basqınlarına son qoyuldu. Separatçı qüvvələrin bir hissəsi bölgədən qovuldu. Bölgənin dinc erməni əhalisi Azərbaycan hakimiyyətinə tabe oldu. Beləliklə, Qarabağın dağlıq hissəsində Azərbaycan dövlətinin suveren hüquqları təmin edildi.

AXC hökuməti 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğu yaratdı. Bəhram xan Naxçıvanski general-qubernator təyin edildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanda da öz suveren hüquqlarını qəti şəkildə bərqərar etdi.

Cümhuriyyət hökuməti bolşevikdaşnak talanları nəticəsində dağılmış iqtisadiyyatı bərpa etməyə başladı. Hökumətin iqtisadi siyasəti dövlətimizin inkişafına və xalqın rifahını yüksəltməyə yönəlmişdi. Əhalinin ərzaqla fasiləsiz təmin edilməsi, bahalığın qarşısının alınması üçün 1918-ci il iyunun 27-də hökumət taxıl, mal-qara və digər ərzaq məhsullarının ölkədən kənara çıxarılmasını qadağan edən qərar qəbul etdi. Başqa bir qərarla respublika ərazisində azad ticarətə icazə verildi.

1918-ci ilin sentyabrında Bakı bonu adlı milli pul vahidi dövriyyəyə buraxıldı. Bir il sonra Dövlət bankı yaradıldı. Milli sahibkarlar müstəqil dövlətin yaranmasını böyük sevinclə qarşıladılar. Hacı Zeynalabdin Tağıyev AXC-ni "doğma Vətənimizin üzərində parlayan müstəqillik günəşi" adlandırmış, özünün bütün iqtisadi və maliyyə imkanlarını Cümhuriyyətin inkişafına yönəltmişdi.

Milli hökumət öz sosial siyasətini xüsusi proqram əsasında həyata keçirirdi. Əsas diqqət müəssisələrdə 8 saatlıq iş gününün tətbiqinə və gecə növbəsinin ləğvinə yönəlmişdi. Qadınların sağlamlığa ziyan vuran işlərdə çalışması qadağan edildi. Qadınlar işləyən müəssisələrdə hökmən körpələr evi açılması tələb edilirdi. Sahibkarlar Əmək Nazirliyinin razılığı olmadan işçiləri kütləvi şəkildə işdən çıxara bilməzdilər. 1919-cu ilin əvvəlindən çoxuşaqlı fəhlələrə maaşdan əlavə vəsait verilməsinə başlanmışdı.

Hökumət milli təhsil sisteminin yaradılmasına böyük diqqət yetirirdi. Milli kadrlar hazırlamaq, dövlətçiliyə sədaqətli olan yeni gənc nəsil yetişdirmək hava-su kimi lazım idi. Cümhuriyyət ilk addım kimi təhsil müəssisələrini milliləşdirdi.

Hökumətin qərarı ilə ibtidai məktəblərdə şagirdlər ana dilində təhsil almalı idilər. Rus məktəblərində Azərbaycan dili fənni hökmən tədris olunmalı idi. Yeni tədris proqramlarına "Rusiya tarixi" əvəzinə "Türk xalqları tarixi" fənni daxil edildi.

Məktəblərdə ana dilində təhsil verən savadlı müəllimlərə böyük ehtiyac yarandı. Ona görə də Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Firudin bəy Köçərlinin təşəbbüsü ilə 1918-ci ilin payızında Qazağa köçürüldü və onun əsasında Qazax Müəllimlər Seminariyası təşkil edildi. Gəncə və Bakı Müəllimlər Seminariyalarında da milli pedaqoji kadrlar hazırlanmasına başlandı, pedaqoji kurslar açıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin ən vacib vəzifələrindən biri respublikanın beynəlxalq aləmdə tanınmasına nail olmaq idi. Hökumət 1918-ci il dekabr ayının 28-də Paris Sülh konfransında iştirak edəcək nümayəndə heyətinin tərkibini təsdiq etdi. Nümayəndə heyətinə Əlimərdan bəy Topçubaşov rəhbərlik etdi. Nümayəndə heyətinə Paris sülh konfransında respublikanı təmsil etmək, Azərbaycan Respublikasının de-fakto tanınmasına nail olmaq, Azərbaycanın milli mənafeyini və suverenliyini qorumaq səlahiyyətləri verilmişdi. Nümayəndə heyəti 1919-cu il yanvar ayının 8-də İstanbul vasitəsilə Parisə yola düşdü. İstanbulda Fransa hökumətinin vizasını üç ay gözləmək lazım gəldi. Nəhayət, may ayının ortalarında nümayəndəlik çox böyük çətinliklə Parisə gəldi. Azərbaycan məsələsi ilk dəfə mayın 2-də Böyük Britaniya, ABŞ, Fransa və İtaliya dövlət başçılarının görüşündə müzakirə edildi. Uzun müzakirələrdən sonra nəhayət, 1920-ci il yanvar ayının 11-də Böyük Britaniyanın Xarici İşlər naziri Lord Kerzonun təklifi ilə "Antanta"nın Ali Şurası Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini de-fakto səviyyəsində tanıdığını bildirdi. Yalnız ABŞ rəsmi surətdə bundan imtina etdi.

"Antanta" Ali Şurası tərəfindən istiqlaliyyəti tanındıqdan sonra Qərb dövlətlərinin Azərbaycana marağı artmağa başlamışdı. Bunun nəticəsi idi ki, 1920-ci ilin apreli üçün Bakıda 20-dən çox dövlətin diplomatik nümayəndəlikləri fəaliyyət göstərirdi.

Təhsildə ən ciddi problemlərdən biri ali təhsilli milli kadrların hazırlanması idi. Bu məqsədlə parlament 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin yaradılması haqqında qanun qəbul etdi. Universitetə qəbul zamanı Azərbaycan vətəndaşlarına üstünlük verilirdi. Universitetdə əvvəlcə iki: tarix-filologiya və tibb fakültələri fəaliyyətə başladı. Bundan əlavə, 100 azərbaycanlı gənc xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil almağa göndərildi. Bu məqsədlə yeddi milyon manat vəsait ayrıldı. H.Z.Tağıyev həmin gənclərdən iyirmisinin təhsil xərcini öz boynuna götürdü. Bu gənclər Avropanın nüfuzlu universitetlərində iqtisadçı, mühəndis, həmçinin gəmiqayırma və təyyarə düzəldilməsi kimi nadir ixtisaslara yiyələnmək üçün göndərilmişdilər.

Yeni mədəni-maarif müəssisələri yaradılmasına da diqqət yetirilirdi. 1919-cu ildə ilk milli kitabxana fəaliyyətə başladı. Həmin il "İstiqlal" muzeyinin açılması da böyük mədəni hadisə oldu. Milli hökumət respublikamızda tam demokratik mühit yaratmağa çalışırdı. Söz, mətbuat və vicdan azadlıqları təmin olunmuşdu. Mətbuat üzərindən senzura tamam götürülmüşdü. Rəsmi mətbuat orqanı olan "Azərbaycan" qəzeti Azərbaycan və rus dillərində hər gün çıxırdı. Demokratik şəraitdən milli dövlətimizin düşmənləri də yararlanırdılar.





Sovet Rusiyasının hərbi müdaxiləsi və XI Qırmızı Ordu hissələrinin qanlı hərbi əməliyyatları nəticəsində Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatılsa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə, Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün Şərqdə, o cümlədən Türk-İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində rolu misilsizdir.

**Etiram DADAŞLI,**
**İ. Tahirov adına Mehdili kənd tam orta məktəbin tarix müəllimi**

# COCUQ MƏRCANLIDAN XƏBƏRLƏR

## Mərkəzi Bankın Sədri Cocuq Mərcanlıda





Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edib.

Səfər çərçivəsində Mərkəzi Bankın sədri Elman Rüstəmov və Cəbrayıl rayon İcra hakimiyyətinin başçısı Kamal Həsənov Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər.

Sonra Cocuq Mərcanlı kəndinə gələn qonaqlar kənddəki Novruz Aslanov adına tam orta məktəbin müəllim və şagird kollektivi ilə görüşmüş, məktəblə tanış olmuşlar.

Qonaqlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə işğaldan azad edilmiş Cocuq Mərcanlıda aparılan tikinti-quruculuq işləri ilə tanış olmuş, Şuşa məscidinin bənzəri olan kənd məscidini ziyarət etmişlər.

Ön cəbhədə xidmət göstərən hərbi hissənin şəxsi heyəti ilə görüşən E.Rüstəmov əsgərlərin ruh yüksəkliyini və döyüş qabiliyyətini xüsusi vurğulamışdır.

Kənd sakinləri ilə görüşən Mərkəzi Bankın sədri onları doğma kəndlərində salamlamaqdan məmnunluğunu ifadə etmiş, Ölkə başçısı cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində işğal altında olan digər ərazilərimizində azad olunacağına əmin olduğunu bildirmişdir. Kənd sakinlərinin problemləri ilə tanış olan E.Rüstəmov onların səsləndirdikləri təkliflərin icrası ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Kənd sakinləri onlara göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirmişlər.

## Kənd Təsərrüfatı naziri Cocuq Mərcanlıda olub

Kənd Təsərrüfatı naziri İnam Kərimov mayın 5-də Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində olub.

Nazir İnam Kərimov Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovla birgə əvvəlcə Horadiz şəhərində "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edib.

Cocuq Mərcanlıya gələn İnam Kərimov



kənd sakinləri ilə görüşərək, onların qayğı və problemləri ilə maraqlanıb, arzu və təkliflərini dinləyib. Nazir bildirib ki, Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq nazirliyin nümayəndələri, mütəxəssisləri fermerlərlə, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlar ilə görüşlər keçirir.

"Dövlət başçısının tapşırığı ilə Cocuq Mərcanlıda qısa müddətdə müasir, bütün infrastruktura malik qəsəbə salınıb. Kəndin inkişafı üçün əsas istiqamətlərdən biri burada aqrar fəaliyyətin genişlənməsidir.

Sakinlərin məşğulluğunun təmin edilməsi başlıca hədəflərimizdəndir. Bugünkü görüşümüzün məqsədi də sakinlərin qayğılarını dinləmək və fəaliyyətimizi buna uyğun qurmaqdır. Cocuq Mərcanlı sakinlərinə aqrar sahədə daim dəstək verib, qayğı göstərməliyik" - deyə, nazir bildirib.

İnam Kərimov Cocuq Mərcanlıda ayrılan pay torpaqlarının əkilməsi, becərilməsi və məhsul yığımı zamanı istifadə olunan bütün texnikaların, həmçinin gübrə və toxumların Kənd Təsərrüfatı Nazirliyi tərəfindən əvəzsiz təmin ediləcəyini bildirib.

Nazir qeyd edib ki, hazırda Cocuq Mərcanlıda 33 hektarda qarğıdalı əkilməsi nəzərdə tutulub. Kənd Təsərrüfatı naziri rəhbərlik etdiyi qurumun nəinki səpin prosesində, həmçinin məhsul istehsalının bütün mərhələlərində, problemlərin həllində fermerlərin, kənd sakinlərinin yanında olacağını əlavə edib.

Nazir bildirib ki, fermerlər həm texnika ilə təmin ediləcək, həm də onlara məhsuldarlığın artırılması üçün məsləhət xidməti göstəriləcək.

İnam Kərimov Cocuq Mərcanlı kəndində 25 ildən sonra ilk dəfə olaraq həyata keçirilən qarğıdalı səpinində iştirak edib.

## Regional İdarə kollektivi Cocuq Mərcanlıya səfər edib

Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsinin kollektivi Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfər edib.

Qonaqlar əvvəlcə Horadiz-Cocuq Mərcanlı avtomobil yolunun kənarında "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər.

Sonra Cocuq Mərcanlı kəndinə gələn qonaqlar kənddə aparılmış abadlıq və yenidənqurma işləri ilə tanış olublar.

Kənd klubunda keçirilən tədbirdə çıxış edən regional İdarənin rəisi Elçin Hüseynov işğaldan azad olunmuş torpaqlara gəldikləri



üçün böyük qürur hissi keçirdiyini qeyd edərək, burada yaşamağın, işləməyin böyük fədakarlıq, vətənpərvərlik nümunəsi olduğunu bildirib. Diqqətə çatdırılıb ki, düşmənin



xarabalığa çevirdiyi Cocuq Mərcanlı Prezident İlham Əliyevin sərəncamlarına əsasən qısa vaxtda yenidən qurulub, bütün infrastruktura malik abad qəsəbəyə çevrilib.

Tədbirdə regional idarənin incəsənət ustaları Əlikiram Bayramov, Vüsal Zamanov, Səxavət Əsgərov, Elman Məmmədov, Gülnarə Qarabağlı, "Cəngi" Xalq kollektivi və başqaları çıxış etdilər.

Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə xanım İbayeva kütləvi tədbir təşkil edərək kənd sakinlərinə mənəvi dəstək olduqlarına görə idarənin kollektivinə minnətdarlığını bildirdi.

**Hidayət SƏFƏRLİ,**
**"Xudafərin" qəzeti**
**baş redaktorunun müavini,**
**AJB-nin üzvü**

# 2018-ci ilin yanvar-mart aylarında Cəbrayıl rayonunun sosial-iqtisadi inkişafı haqqında

**Ümumi daxili məhsul:** 2018-ci ilin yanvar-mart aylarında Cəbrayıl rayonunda iqtisadiyyatın əsas sahələri üzrə (sənaye, kənd təsərrüfatı, tikinti-quraşdırma işləri, nəqliyyat və anbar təsərrüfatı, informsiya və rabitə) məhsul buraxılışı əvvəlki ilin müvafiq dövrünə nisbətən 33,7 faiz azalaraq 3467 min manat olmuşdur. İstehsal edilmiş məhsulun rayon əhalisinin hər nəfərinə düşən dəyəri 43,28 manat təşkil etmişdir.

Rayonda istehsalın ümumi həcminin azalmasının əsas səbəbi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulunun 65,9 faiz, tikinti sahəsində işin həcminin isə 83 faiz azalmasıdır.

Məhsulun 458,7 min manatı sənayedə, 2766,5 min manatı kənd təsərrüfatında, 207,3 min manatı tikintidə,6,5 min manatı nəqliyyat və anbar təsərrüfatında, 28 min manatı isə informasiya və rabitə sahələrində olmuşdur.

**Demoqrafik göstəricilər:** Cəbrayıl rayonunun ərazisi 1,05 min kvadrat kilometr, əhalisinin sıxlığı isə bir kvadrat kilometrə 76 nəfər təşkil edir.

2018-ci ilin 01 aprel vəziyyətinə rayonun əhalisi 80,1 min nəfər olmuş (o cümlədən şəhər yeri 13,2 min nəfər, kənd yeri 66,9 min nəfər) və 2018-ci ilin əvvəlindən 201 nəfər, yaxud 0,3 faiz artmışdır. Rayon əhalisinin ümumi sayından 49,3 faizini kişilər (39,5 min nəfər), 50,7 faizini qadınlar(40,6 min nəfər) təşkil edir. Əhalinin 22,6 faizi 0-14 yaşda (18,1 min nəfər), 71,3 faizi 15-64 yaşda (57,1 min nəfər), 6,1 faizi (4,9 min nəfər) 65 və yuxarı yaşda olanlardır. Əhalinin 27,9 faizini (22,4 min nəfər) 14-29 yaşda olan yeniyetmələr və gənclər təşkil edir.

2018 və 2017-ci illərin yanvar-mart dövründə rayon üzrə əsas demoqrafik göstəricilər aşağıdakı kimi olmuşdur.

2018-ci ilin yanvar-mart aylarında Cəbrayıl rayonunda 185 doğulan, 49 nəfər ölən qeydə alınmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə doğulanların sayı 23 nəfər və ya 14,2 faiz artmışdır. İlin əvvəlindən ölənlərin sayı isə 49 nəfər olmuşdur. 2017-ci ilin eyni dövrü ilə müqayisədə ölənlərin sayı 12 nəfər və ya 19,7 faiz azalmışdır.

2018-ci ilin yanvar-mart aylarında rayonda 37 nikah bağlanmış və 14 boşanma faktı qeydə alınmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 15,6 faiz çox olmuş, boşanma faktlarının sayı isə 26,3 azalmışdır.

2018-ci ilin yanvar-mart aylarında 74 nəfər rayon ərazisinə daimi yaşamaq üçün gəlmiş, 9 nəfər isə qeydiyyatdan çıxıb getmişdir. Rayon üzrə miqrasiyanın müsbət saldosu 65 nəfər olmuşdur.

**Əmək:** İşləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhali Cəbrayıl rayonunda 01 aprel 2018-ci il tarixə 44147 nəfər olmuş, 15 və yuxarı yaşda olan əmək qabiliyyətli rayon əhalisinin 71,2 faizini təşkil etmişdir. İqtisadi fəal əhalinin tərkibində məşğul olanların xüsusi çəkisi 95,0 faiz olmuşdur.

2018-ci ilin yanvar-mart aylarında rayonda 44 vahid yeni iş yeri - o cümlədən 14 mövcud müəssisələrdə, 9 vahid yeni yaradılmış müəssisədə, 21 vahid isə fiziki şəxslərdə açılmışdır.

2018-ci ilin yanvar-mart aylarında rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 324,2 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövründə isə orta aylıq əmək haqqı 227,1 manat təşkil etmişdir.

**Sənaye:** Cəbrayıl rayonu ərazisində 2018-ci ilin yanvar-mart aylarında mövcud olan aşağıdakı sənaye müəssisələri - Cəbrayıl rayon kənd içməli su təchizatı müəssisəsi, Cəbrayıl Rayon Paylayıcı Elektrik şəbəkəsinin rayon sahəsi, Cəbrayıl rayon təsərrüfat hesablı Cəbrayıl rayon Kommunal Təsərrüfatı müəssisəsi və Araz istehsal və təlim kombinatı fəaliyyət göstərir.

2018-ci ilin yanvar-mart aylarında istehsal olunmuş mallar, yerinə yetirilmiş iş və xidmətlər 458,7 min manat olmuşdur. Ötən ilin müvafiq dövründə bu göstərici 1346,6 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə istehsal olunmuş mallar, yerinə yetirilmiş iş və xidmətlər 34,1 faizini təşkil etmişdir.

Sənaye fəaliyyəti ilə məşğul olan müəssisələr üzrə 2018-ci ilin yanvar-mart aylarında hesablanmış əmək haqqı fondu 136,2 min manat olmuşdur. Ötən ilin müvafiq dövründə bu göstərici 115,9 min manat olmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 117,5 faiz deməkdir.

Bir işçiyə düşən orta aylıq nominal əmək haqqı 2018-ci ilin yanvar-mart aylarında 275,2 manat, ötən ilin müvafiq dövründə bu göstərici 284,2 manat olmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 96,8 faiz deməkdir.

**Əsaslı tikinti və investisiya:** Rayon üzrə tikinti təşkilatlarının 2018-ci ilin yanvar-mart aylarında öz gücləri ilə yerinə yetirdikləri podrat işlərinin dəyəri 207,3 min manat olmuşdur. Görülən işlərin hamısı cari təmir işləridir.

Ötən ilin müvafiq dövründə yerinə yetirilmiş podrat işlərinin dəyəri 1221,6 min manat olmuşdur. Baxılan dövrdə yerinə yetirilmiş podrat işlərinin həcmi ötən ilin müvafiq dövrünə nisbətən 83 faiz az olmuşdur.

Tikinti təşkilatlarında ilin əvvəlindən 92 nəfər çalışmışdır. Onlara 89,3 min manat əmək haqqı hesablanmışdır. Ötən ilin müvafiq dövründə isə tikinti təşkilatlarında 24 nəfər çalışmış, onlara 13,2 min manat əmək haqqı hesablanmışdır. Bir işçiyə düşən orta aylıq əmək haqqı 337,1 manat olmuşdur. Bu rəqəmləri müqayisə etsək, görərik ki, baxılan dövrdə bir işçiyə düşən orta aylıq əmək haqqı ötən ilin müvafiq dövrünə nisbətən 187 faiz təşkil edir.

**Kənd təsərrüfatı:** Cəbrayıl rayonu üzrə 01 aprel 2018-ci il tarixə yazlıq əkinlərin cəmi 75 hektar təşkil etmişdir. Keçən ilin müvafiq dövründə isə 37 hektar olmuşdur. Keçən il yazlıq əkinlərin 8 ha tərəvəz, 29 ha isə kartof olmuşdur. Bu il isə 10 ha tərəvəz, 30 ha kartof, 2 ha texniki bitki olan şəkərçuğunduru və 33 ha yazlıq yonca bitkisi əkilmişdir. Beləliklə, keçən ilin müvafiq dövrünə nisbətən yazlıq bitkilərin əkini 2 dəfə artmışdır.

01 aprel 2018-ci il tarixə heyvandarlıq sahəsində qənaətbəxş vəziyyət olmuşdur. Belə ki, qeyd edilən dövrdə rayon üzrə 10587 baş iri buynuzlu mal-qara, o cümlədən 4123 baş inək və camış, 116728 baş qoyun və keçi mövcud olmuşdur.

01 aprel 2018-ci il tarixə mövcud olan mal-qaranın sayını ötən ilin müvafiq dövrü ilə müqayisə etsək görərik ki, iri buynuzlu mal-qara 162 baş, o, cümlədən inək və camış 55 baş, qoyun və keçilər isə 1823 baş artıq olmuşdur.

Baxılan dövrdə rayon üzrə ət istehsalı 479 ton (diri çəkidə), süd istehsalı 1821 ton, yumurta istehsalı 1125 min ədəd olmuşdur. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 26 ton və ya 5,7 faiz, süd istehsalı 70 ton və ya 4 faiz, yumurta istehsalı isə 55 min ədəd və ya 5,1 faiz artmışdır.

**Nəqliyyat və rabitə:** Rayon üzrə 2018-ci ilin yanvar-mart aylarında dövlət rabitə müəssisələrində göstərilmiş rabitə xidmətlərinin həcmi 34,5 min manat, başqa sözlə keçən ilin müvafiq dövrü ilə müqayisədə 134,8 faiz olmuşdur.

Baxılan dövrdə telefon aparatlarının sayı isə 1073 ədəd olmuşdur. Bu telefon aparatlarının hamısı elektron sistemlidir.

**Sahib SÜLEYMANOV,**
**Cəbrayıl Rayon**
**Statistika İdarəsinin rəisi**

# Biz hansı xalqıq?..



Şakir Albalıyev,
folklorşünas

**"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir"**

**Heydər Əliyev**

Hər bir bəşər nəsli özünün soykökü, hansı nəslə, tayfaya, tirəyə, xalqa, millətə mənsub olması barədə, vətəni, dövləti haqqında doğru-dürüst və ətraflı məlumat əldə etməkdə maraqlıdır. Biz kimik, hardan gəlmişik, vətənimiz haradan başlanıb, haralaracan uzanır kimi suallar bədii düşüncəmizin də, elmi təfəkkürümüzün də daim diqqət mərkəzində olub. Təsadüfi deyil ki, Xalq şairimiz Sabir Xudu oğlu Rüstəmxanlı hələ sovetlər dönəmində 1986-cı ildə "Yazıçı" nəşriyyatında çapdan buraxılmış və o dövr üçün cəsarət göstərib "Qan yaddaşı" adlandırdığı şeirlər toplusuna "Ön söz yerinə" adlı bir şeirilə başlayıb:

Bu Vətən deyilən dünyam sirlidi,
Bir paytaxtı sevinc, bir paytaxtı qəm.
Bu Vətən torpağı çox qəribədi,
Hələ sərhəddini tapa bilmirəm.

...Dünyanın köksündən bir ümman axır,
Yayılır qolları, dəyişir adı.
Yolları Şərurda dayanan xalqın
Qəlbinin paytaxtı Kərbəladadı.

Dərbənd qəbristanı şəhərdən böyük,
Müdrik babamıza dayanacaqdır...
Bir gün Dədəm Qorqud mənə işimcə
Təzə ad verməyə oyanacaqdır!...

Üç bəndini misal gətirdiyim bu şeirin məzmununda əslində şairin "hələ sərhədini tapa bilmirəm" dediyi vətənimizin coğrafiyasına dair poetik ricətlər əks olunub. Bugünkü mərkəzi Bakı şəhəri olan Azərbaycan dövləti bir zamanlar bir ucu Dağıstandan başlamaqla Gürcüstan, Ermənistan, Türkiyənin Ərzurum, Qars, İqdır vilayətləri əraziləri, Ağrı dağı, İran, İraq, Suriya, Əfqanıstan, Xəzər dənizinəcən geniş bir miqyasda öz nüfuzunu, təsir dairəsini göstərmişdir. Mən yuxarıdakı misraları burada əbəs yerə yazmadım; burada "bir paytaxtı sevinc" deyiləndə Bakını, "bir paytaxtı qəm" dedikdə sovet dövründə əlimiz yetə bilməyən, ayağımız toxunmayan Təbrizi nəzərdə tutan şair "qəlbimizin paytaxtı"nın Kərbəla - İraq ərazisi olduğunu 1980-ci illərdə Sovet hökuməti zamanında cəsarətlə ifadə etmişdir. "Dərbənd qəbiristanı şəhərdən böyük" deyib müdrik babalarımızın burada yaşayıb-uyuduğunu diqqətə çəkməklə isə yenə də Dərbənd, bütövlükdə Dağıstan ərazisinin xalqımızın vətəni, dövlətimizin ərazisi olduğunun bədii inikasını vermişdir. Şeirin burada verməmdiyim digər parçalarında da "İrəvan çuxuru", Qarayazı, Şumer mədəniyyətinin mövcud olduğu ərazilərin adları xatırlanmaqla Azərbaycanımızın, eləcə də ümumtürk dünyasının poetik coğrafiyası təsvir olunub.

Mən bu poetik örnəyi nümunə gətirməklə vətən, xalq anlayışının həm bədii düşüncəmizdə özünə mühüm yer etdiyini göstərmək istədim, həm də tariximizin poetik yaddaşımızda inikas olunduğunu diqqətə çəkmək istədim. Çünki biz tarixən öz keçmişimizi ən çox bədii lövhələr vasitəsilə yazılı və şifahi ədəbiyyatımızda yaşatmağa üstünlük vermişik. XX əsrin sonları və XXI əsr Azərbaycan poeziyasının tanınmış, ünlü nümayəndəsi olan Xalq şairi Sabir Rüsəmxanlı da bu klassik ənənəni yaşatmış, vətəndaş-şair kimi vətənpərvər ruhlu səsini ucaltmışdır. "Dünyanın köksündən bir ümman axır, yayılır qolları, dəyişir adı" deyən şair metaforik olaraq xalqı ümmana bənzədir; o ümman (o etnos, o türk dünyası) artıb-çoxaldıqca onun kökündən-gövdəsindən qolları-budaqları ayrılaraq dünyanın müxtəlif areallarına yayılır və bu şaxələnmədən, bu yayılmadan ümumi mənşəyə malik enoslar da törəyir ki, bu yayılan qollara-budaqlara, şaxələrə də müvafiq adlar qoyulur ("dəyişir adı" - şairin təbirincə dedikdə). Amma bu yeni adqoymalar (dəyişən adlar) təbii tarixi diferensiasiya nəticəsində baş verir ki, bununla da tarixi inkişaf prosesi labüd şəkildə özünü göstərmiş olur. Eyni zamanda dəyişən adlar, yeni-yeni etnosların yaranması mahiyyəti dəyişmir, rişələndikləri kökün-qaynağın bir bütövü - ayrılmaz tərkib hissəsi kimi mövcud olurlar. Bu, ona bənzəyir ki, bir babanın oğlu öz atasının adını yox, özünə aid olan başqa bir adı daşıyır, nəvəsi -nəticələri də buna müvafiq olaraq başqa-başqa adlar daşıyacaqlar, uzaqbaşı o nəvələrdən birinə, ya ikisinə ayrı-ayrı məqamlarda kökə (babaya, ataya) sədaqətin, bağlılığın, məhəbbətin əlaməti olaraq babanın adı qoyulub, baba (kök) ilə adaş(addaş, addaşıyıcısı) ola bilər. Deməli, oğulun atanın adını daşıması da təbiidir, həm də bu zahiri addəyişikliyi oğulla ata, nəvə ilə baba arasındakı genetik bağlılığı da inkar etmir. İnkar onda oluna bilər ki, qan yaddaşı itə bilər, oğul öz doğma atasını, yaxud nəvə öz babasını (ümumilikdə isə cəddi-əbasını) tanıya bilməz. Onda isə, Allah eləməsin, ruhən qiyamət qopar, mənəvi dünya öz məhvərindən uçub-dağılar. Çünki türk təfəkküründə atasından, babasından xəbərsizlik zatıqırıqlıq, haramzadəlik kimi ən aşağılayıcı təhqir, insanlıq üçün ən ağır ləkə sayılıb. Bir daha onu xatırladım ki, S.Rüstəmxanlı da məhz bədii sözün gücü ilə xalqımızın tarixinə güzgü tutmaq istədiyi şeirlər kitabının adını "Qan yaddaşı" qoymaqda belə bir məntiqə əsaslanıbdır ki, qan yaddaşına əsaslanmaqla xalqın kimliyini, Vətənin tarixini öyrənmək və tanımaq olar.

Türk xalqları bütöv bir ailə olub, həndəsi silsilə kimi uzanıb-artıb, çoxluq təşkil edirlər. Bəs biz azərbaycanlılar - hazırda azəri türkləri kimi adlandırıldığımız bizlər türk xalqları ailəsində hansı mövqedəyik? Tatar, türk, azəri, müsəlman, azərbaycanlı və başqa adlar altında tarixin müxtəlif çağlarında müxtəlif xalqlar və dövlətlər tərəfindən adlandırılıb-tanıdılan bizlər kimik? Tarixi vətənimiz, milli kimliyimiz hansı şərtlərlə müəyyənləşdirilir? Yuxarıda misal gətirdiyim poetik nümunədə Xalq şairimiz məhz öz fikirlərini bu yöndən bədii şəkildə izhar etmişdir. Bu sual ətrafında indiyədək bədii-publisistik və elmi istiqamətdən müxtəlif cür fikirlər səsləndirilmişdir. Məlumdur ki, hazırda çoxlu sayda türk xalqları olduğu kimi, türk dövlətləri də mövcuddur. Akademik Nizami Cəfərov "Türkologiyaya giriş" ("Elm və təhsil", 2016) kitabında bu barədə yazır:

"Yer üzündə bu gün iyirmidən çox türk xalqı mövcuddur ki, onların ümumi sayı (nüfuzu) iki yüz əlli milyona çatır: türklər və ya Türkiyə türkləri, azərbaycanlılar və ya Azərbaycan türkləri, uyğurlar, özbəklər, qazaxlar, tatarlar, türkmənlər, qırğızlar, çuvaşlar, başqırdlar, qaqauzlar, saxalar, qaraqalpaqlar, qumuqlar, tuvalar, qaraçaylar, bolqarlar, altaylar, noqaylar, şorlar, qaraimlər və b.

Türk xalqlarının sayının müxtəlif mənbələrdə müxtəlif rəqəmlərlə (əsasən iyirmidən iyirmi beşə qədər) göstərilməsi onunla bağlıdır ki, bir sıra türk mənşəli toplumların müstəqil xalq, yoxsa bu və ya digər türk xalqının tərkib hissəsi olması mübahisələridir, məsələn, Sibir tatarlarının, Axısqa türklərinin, sarı uyğurların...

Türk xalqlarının təsnifinin (bölgüsünün) "dərinləşdirilməsi" (ayrı-ayrı xalqlara ayrılması - Ş.A.) ilə yanaşı, ümumiləşdirilməsi təcrübəsi də vardır: oğuzlar, qıpçaqlar və karluqlar.

Bugünkü türklərin mütləq əksəriyyəti müsəlman olsalar da, xristian, iudaist, şamançı... türklər də mövcuddur.

Və Avrasiyanın geniş bir coğrafiyasında qədim dövrlərdən etibarən məskunlaşmış türk xalqları "türk dünyası"nı təşkil edirlər" (səh.5).

Göründüyü kimi, akademik burada türk xalqları, türk dövlətləri məsələsinə də, eyni zamanda onların dili və dini nöqteyi-nəzərdən fərqlənmələri və birlik ("Türk dünyası") təşkil etmələrinə də konkret və aydın şərh vermişdir. Bütün bunlarla yanaşı, bu türk xalqları içərisində bizim də yerimiz artıq ənənəviləşmiş şəkildə "azərbaycanlılar və ya Azərbaycan türkləri" kimi qeyd edilmişdir. Burdan da bir daha anlaşılır ki, biz yaşadığımız coğrafi regionumuz olan doğma vətənimizin - Azərbaycanımızın adı ilə adlandırılırıq: bir millət olaraq sadəcə ya azərbaycanlı kimi, ya da bu ad epitet kimi milliyyətimizin adına artırılmaqla bizim türk xalqları arasında milli mövqeyimizi - milli mənsubluğumuzu müəyyənləşdirir (bəlkə də, konkretləşdirir desək, daha düz səslənər). Vətənimizin adı olan Azərbaycan sözü çox əzəmətli səslənir və bu baxımdan vətənimizin adı ilə (birgə) milli kimliyimizin ifadə olunması bizə hardasa fərəh verir. Ancaq bununla bərabər onu da etiraf etməliyik ki, azərbaycanlı adı ilə bir xalq, millət kimi tanıdılmağımız müəyyən dövrlərdə siyasi və ideoloji məqsədlərə xidmət edib. Bu, bir tərəfdən türk adına xudpəsəndliklə yanaşılmanın nəticəsi olub, türk sözünün sıxışdırılıb aradan çıxardılmasına da xidmət edib. Eyni zamanda bu da həqiqətdir ki, müasir türk dili (Türkiyə türklərinin danışıq dili) ilə bizim danışığımız-yazımız arasında da sezilən fərqliliklər var və bu məqamda Türkiyə türkləri və Azərbaycan türkləri bölgüləri arasında, məncə, tam bərabərlik işarəsi də qoyub, bu dili də, o dili də birbaşa "türk dili" işarəsi (adı) altında təqdim etmək də hardasa özünü tam doğrultmur. Türk dili, tatar dili, qaqauz dili, türkmən dili və başqaları türk dilləri ailəsinə daxil olmaqla, eyni zamanda başqa-başqa adlar altında verilib bir-birindən fərqləndirildiyi kimi, məncə, Azərbaycan dili də məhz bu cür şərti bölgüdə verilməklə fərqləndirilməlidir. Çünki bizim danışdığımız Azərbaycan dilinin sabitləşmiş qrammatik - orfoqrafik (və leksik) normaları vardır. Amma bütün bunlara baxmayaraq, yenə də hardasa ilişik qalan məqamlar vardır ki, birbaşa dilin və millətin göstəricisi kimi çıxış etmədiyindən, azərbaycanlı (Azərbaycan dili) ifadəsi də öz yerinə-yuvasına tam oturmur.

""Azərbaycan dili" anlayışının tarixi" ("Elm və təhsil", 2017) monoqrafiyasının müəllifi fəlsəfə doktoru Aysel Qəribli yazır ki, "1930-cu illərin ortalarına qədər Azərbaycan SSR-in dövlət dili "türk dili" adlanırdı, lakin həmin illərə qədər də Azərbaycan türkcəsi (rusca: тюркский язык) Türkiyə türkcəsindən (rusca: турецкий язык) fərqlənir, bunlar ayrı-ayrı müstəqil dillər kimi qəbul edilirdi" (səh. 121-122).

Əslində, burada incə bir ştrix ifadə olunub ki, Azərbaycan dili türk dillərindən olsa da, müasir türk dilinin (Türkiyə türklərinin) eyni də deyildir. Deməli, dilimizin öz həqiqi adı ilə adlandırılması məsələsində həssas bir nöqtə var ki, həmin o zərif nüansı aşkarlayıb, həqiqəti öz yerinə bərpa etmək lazımdır. Bundan ötrü isə "Amerika kəşf eləmək" - özümüzdən nə isə abstrakt bir şey icad edib ortaya göydəndüşmə bir şey çıxarmamalıyıq. Bunun üçün bir az aydın təfəkkür işığında düşünməklə tarixə üz tutmaq və türkəsilli xalqlar arasındakı qlossogenetik və ümumiyyətlə genetik bağları, bundan irəli gələn ortaq folkloru, mədəni irsi analitik baxışla nəzərdən keçirmək yetərlidir ki, tarixin (xalqın) qaranlıqda qalan mətləblərinə işıq düşsün. Türk xalqlarının dövlətçilik və tarixi - coğrafi arsenalındakı mövqeyini ilk növbədə diqqətlə müşahidə eləsək, birbirlərindən ayrı düşmüş soydaşlarımızın tarixi taleyini araşdırsaq və bu zaman ortaya çıxan tarixi gerçəklikləri - dil, mədəni-mənəvi dəyərlər və folklor incilərinin diqtə elədikləri ən ümumi ortaq məsələləri bir yerə cəm eləyə bilsək, onda hər şey öz yerini alacaq, həqiqət də - xalqımızın, millətimizin tarixi qədim adı da bununla bərabər üzə çıxacaq.

Mən yazımın əvvəllərində Azərbaycan dövlətinin (əslində Azərbaycan adı ilə adlandırılan etnosun, xalqın) tarixən mövcud olduğu, yaşadığı ərazilərin adlarını təsadüfən diqqətə çəkməmişdim. Akademik N.Cəfərovun çox-çox doğru olaraq diqqətə gətirdiyi və bu məsələnin uğurlu həlli üçün çox komponentli amillərin öyrənilməsinin vacibliyindən bəhs açması bu məqamda fikrimizlə üst-üstə düşür: "Və "fundamental" hesab edilən problemlərin bir mühüm xüsusiyyəti də "çoxkomponentli" olmasıdır. Məsələn, bu və ya digər etnosun həm mənşəyi (etnogenezisi), həm də müxtəlif xalqlara bölünməsi (diferensiasiya) probleminin izahı 1) etnoqrafiya, 2) etnocoğrafiya, 3) dünyagörüşü, 4) dövlətçilik, 5) dil, 6) ədəbiyyat və s. komponent və ya paradiqmalara eyni zamanda bir sistem olaraq baxılmasını tələb edir" (səh.8).

(Ardı səh. 6-da )

# Biz hansı xalqıq?..

(Əvvəli səh. 5-də)

Bəli, məhz mən də yuxarıdakı etnik əlamətlərin göstəriciləri kimi çıxış edən komponentləri bir arada götürməklə türk xalqları içərisində Azərbaycan xalqının kimliyi - tarixən hansı türk etnosunu təmsil etməsini aydınlaşdırmaq niyyətindəyəm. Çoxdan bəri gizli şəkildə - yəni özüm öz içimə qapılaraq axtarışında olduğum bu məsələni çözmək istəyirəm. Yuxarıda qeyd etdim ki, bu yöndə nəsə göydəndüşmə bir icad eləməyə lüzum yoxdur. Sadəcə, olanı - tarixi həqiqəti, əslində isə gözümüzün qabağında olub, nədənsə görə bilmədiyimiz həqiqəti görüb dəyərləndirə bilməmiz bu məsələdə əsasdır. Bəlkə də, mənim deyəcəyim sirr (əslində hamının gördüyü, lakin fərqinə varmadığı sirr) ilk baxışda qəribə qarşılanacaq, ya sadəcə dodaq büzüləcək, güləcəklər, ya da ki, eh, bunu biz də bilirdik ki, deyəcəklər. Amma bilirdinizsə, niyə indiyədək bu məsələni qaldırmayıbsınız, özü də heç vaxt, heç bir dəfə də olsun! Əlbəttə ki, dilçilik, milli mənsubiyyətimiz kontekstində prinsipial bir problem kimi!..

Onu da qeyd edim ki, söyləyəcəyim fikir öz rüşeymlərini beynimə hələ orta məktəbdə oxuduğum illərdən (Sovet dövründən) atmışdı. Əlbəttə ki, görkəmli folklorşünasımız, dilçi və ədəbiyyatşünasımız professor Qəzənfər Paşayevin fədakar zəhməti sayəsində. Doktor Mustafa Ziyanın "İraq türkmanlarının Azərbaycandakı mədəniyyət səfiri" adlandırdığı Qəzənfər müəllimin Kərkük mahnılarını, bayatılarını 1970-80-ci illərdə kitabça şəklində Azərbaycanda çap etdirdiyi dövrlərdə mən bu dildəki sehrə aludə olmuşdum, kərküklərin-türkmanların birbaşa azərbaycanlılar (Azərbaycan-türkləri) olduğunu beynimə yerləşdirmişdim. Dahi şairimiz Məhəmməd Füzuli nəsli mənşəcə kim idi? Türkman deyildimi?

Müasir Azərbaycan ərazisi Rusiyanın işğalında, farsların işğalında olduğundan, onun yerli əhalisi olan biz azərbaycanlıların (Azərbaycan türkləri adlandırılan bizlərin) öz soy-kökümüzdən uzaqlaşdırılması da bir siyasi məqsəd olmuş, milli mənsubiyyətimiz qəsdən təhrif edilərək gah tatar, gah müsəlman (fikir verin, dini mənsubiyyəti etnik mənsubiyyətlə qarışdırma halları da olub!), gah Azərbaycan, gah da ki, ən yaxşı halda Azərbaycan türkü və ya sadəcə türk adlandırılmışıq. Beləcə, milliyyətimizin adı qəsdən təhriflərə məruz qalmış, dövlətimizin də bir vaxtlar adında ifadə olunmuş ulu, əzəmətli Türkman adı bizlərə, demək olar, unutdurulmuşdu. Yaxşı ki, İraq, Suriya ərazisində yaşayan soydaşlarımıza bir etnos, xalq, millət olaraq öz adlarını unutdura bilməmişlər. Bəlkə də, görkəmli dilçilərimizdən olan Azərbaycan dili tarixçisi H.Mirzəzadə "İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr" məqaləsində bunu dolayısı yolla da olsa, ifadə etmiş, professor Əbdüləzəl Dəmirçizadə isə XV-XVI əsr Azərbaycan ədəbi dilində Cənubi Azərbaycan və Bağdad (Kərkük) şivə xüsusiyyətlərinin üstünlük təşkil etməsini göstərib, İraq-türkman ləhcəsini Azərbaycan dilinin Cənub qrupu dialekt və şivələri sırasına daxil edərkən də Sovet senzura və qadağalarından ötüşmək məqsədilə fikrini bir qədər üstüörtülü istiqamətdə söyləmişdir.

Əgər professor Qəzənfər Paşayev birbaşa iddia edirsə ki, "Çəkinmədən demək olar ki, əsrlərlə başqa xalqlar əhatəsində qalan, məhz buna görə də qədim leksik və fonetik göstəricilərini daha çox saxlayan İraq türkmanlarının ləhcəsi "Kitabi-Dədə Qorqud"un dil xüsusiyyətlərini tamamilə əks etdirir. "KDQ"da yer alan onlarca sözün indinin özündə belə Kərkük dolaylarında işlək olması, daha doğrusu, həmin sözlərin yalnız həmin mənada işlənməsi tutarlı dəlil-sübutdur" (səh.21).

Professor İraq türkmanlarının öz dillərini qoruyub saxlamalarının səbəbini "başqa xalqların əhatəsində yaşayıb qalması" kimi maraqlı bir amillə əlaqələndirir. Bu, həm də o mənaya gəlir ki, türkman xalqı bununla-yəni başqa xalqların əhatəsində olmaqdan müsbət halda yararlanmaqla özlərinin milli varlıqlarını bir növ, "izolyasiya" etmişlər. Milli kimliklərini millətin, xalqın adı məsələsindən tutmuş, ta digər milli-mənəvi məsələlərəcən qoruyub hifz etməyi bacarmışlar. Bunun bir səbəbi də yəqin ki, İraqın İslam ölkəsi olmaq etibarilə digər xalqlar kimi türkmanlara da zorakı təzyiq göstərməməsilə - milli mənafelərinə zidd ola bilən təbliğatyönlü dövlət tədbirləri aparılmaması ilə izah oluna bilər.

Eyni zamanda Qəzənfər müəllim qeyd edir ki, İraq türkmanlarının ləhcəsi Dədə Qorqudun dil xüsusiyyətlərini tamamilə özündə əks etdirir. Madam ki, bizə yazılı halda gəlib çatan ən qədim şifahi ədəbi abidəmiz "KDQ"nın dil xüsusiyyətlərini özündə əks etdirirsə, onda bu zaman "İraq türkman ləhcəsi" ifadəsindən yox, birbaşa geniş mənada ulu, qədim türkman dilindən söz açılmalıdır. Yəni ki, türkman dili ləhcə səviyyəsində olsaydı, onda nəhəng bir abidənin dil xüsusiyyətlərini özündə əks etdirməkdə aciz olardı. Axı ləhcə hansısa bir dilin məhəlli formada qol-budağıdır. Məhz elə bu məqamda Ə.Dəmirçizadənin də, H.Mirzəzadənin də fikirlərinə qayıdıb, onların cümlələrində də təshihlər aparmaq lazım gəlir. Bu zaman "Azərbaycan dili" ("Azərbaycan türk dili") kimi tanıdılmış milli dilimizin məhz geniş mənada türkman dili olduğu üzə çıxır. Belə olduqda "Azərbaycan dilinin dialekt və şivələri" ifadəsi "Türkman dilinin dialekt və şivələri" formasında işlədilməli və təsnifatlar da bu qaydada aparılmalıdır. Bu deyilənlər heç də H.Mirzəzadənin, Ə.Dəmirçizadənin fikirlərinin üstünə kölgə salmır, əksinə, onların sovet dövründə bir priyom olaraq dolayısı ilə ifadə etdikləri fikrin bu gün müstəqillik zamanımızda birbaşa öz adı ilə adlandırılmasına (və ifadəsinə) xidmət edir. Başqa sözlə, "Azərbaycan dili" ifadəsinin "Türkman dili" ilə əvəzlənməsi ilə tarixdəki siyasi-ideoloji antitürk təbliğatın nəticəsi kimi ortaya çıxmış ad (və termin) dolaşıqlıqları aradan qalxmış olar.

Böyük türk alimi Məhəmməd Fuad Körpülünün İraq türkmanlarını "Oğuzcanın azəri ləhcəsini qonuşan türklər" adlandırmasında isə milli kimlik və dilçilik məsələsi baxımından böyük hədəfi sərrast nişan almışdır: türkmanları məhz Azərbaycan türkü millətinin sinonimi kimi götürməklə eyni xalq-millət olduğumuz bir daha bu şəkildə də öz təsdiqini tapmışdır.

Kərküklü tədqiqatçı Əta Tərzibaşı da bu barədə çox böyük həqiqəti belə ifadə edir: "Bizim türkman ləhcəsi azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın, bəlkə də əkiz qardaşlar olmaqla bərabər, bütün bu ləhcələr uzun bir tarix boyunca çeşidli səbəblərin təsiri ilə bir-birindən xəbərsiz olaraq gəlişdikləri halda aralarında görkəmli fərqlər bilinməmişdir". (Bax: Əta Tərzibaşı. Yazı dili, qonuşma dili. "Qardaşlıq" dərgisi, N-4. Bağdad, 1962, səh. 26-27).

Fikir verin, türkman ləhcəsi (əslində dili) ərazicə və həm də səslənişcə (türk-türkman ifadələri baxımından) özünə bir qədəm də yaxın olan türk ləhcəsinə yox, məhz bizim "azəri ləhcəsinə" - Azərbaycan dilinə daha yaxın - əkiz qardaşlar hesab olunur Türkman aliminin fikrincə. Həm də diqqət etsək, burada incə bir tarixi nüansa da işarə edilir: bu dillər (türkman və Azərbaycan dili) uzun bir tarix boyu müxtəlif səbəblər ucbatından bir-birlərindən xəbərsiz olaraq - yəni bu xalqlar sərhədlərin bir-birlərinin üzünə qapalı olmaları səbəbindən öz aralarında bir-birlərilə təmas qurmadan, ünsiyyət əlaqəsində olmadan da bu dillər arasında görkəmli (yəni nəzərəçarpacaq dərəcədə ciddi) fərqlər yaranmamışdır. Bu fikir isə bir daha türkman və Azərbaycan dillərinin bir-birlərinə sinonim olduğunu, bunların vahid xalqın eyni dili olduğunu isbat edir.

Professor Qəzənfər Paşayev də bu məsələyə çox aydın münasibət sərgiləyir: "Lakin nə kəsilən yollar, nə də ayrılığa gətirib çıxaran illər bu elatın dilinə təsir edə bilməmişdir. O vaxtdan yazı dili Osmanlı türkcəsi kimi qəbul olunsa da, Əta Tərzibaşının göstərdiyi kimi, danışıq dili və folkloru Azərbaycan türkcəsini təmsil etmişdir.

Doğrudan da, İraq-türkman ləhcəsinə, onun folkloruna və xalq havalarına bələd olan türk, Azərbaycan və eləcə də iraqlı alimlər bu elatın ləhcəsinin Azərbaycan dili ilə üst-üstə düşdüyünü, eyni kökdən olduğunu, folklor və xalq havalarının fərqlənmədiyini qeyd edirlər" (səh. 18-19).

Fikir verin, yazı dili Osmanlı türkcəsi kimi qəbul olunmuş türkmanların danışıq dili və folkloru Azərbaycan türkcəsi olaraq dəyişilmədən qalmışdır. Bu fakt özlüyündə hər şeyi açıb ortaya qoyur. Biz azərbaycanlıların ədəbi dilə əsaslanan yazılı dili, ədəbiyyatı olsa da, soykök olaraq türklüyümüzü-türkman adımızı yadırğamış, yaddan çıxarmışıq; iraqdakı soydaşlarımıza isə yazılı dil olaraq rəsmən Osmanlı türkcəsini qəbul etdirsələr də, nə öz dillərini, folklorunu, nə də milli adlarını-kimliklərini nə unutmuş, nə də dəyişmişlər. Bu, taleyin xoşbəxtliyidir. Digər bir tərəfdən isə türk, Azərbaycan və iraqlı alimlər də bu kimi milli-mənəvi komponentlərə söykənərək türkman və Azərbaycan dilinin (və xalqının) eyni olduğunu təsdiqləyirlərsə, onda nədə tərəddüd etməliyik?

Professor Qəzənfər Paşayevin aşağıdakı fikirləri əslində çox böyük mətləblərdən xəbər verir:

"Biz soy-kökündən ayrı düşən, ərəb və kürd xalqları əhatəsində yaşayan, sayları iki milyon yarımı keçən iraq türkmanlarının folkloruna bu müstəvidən baxır və qiymətləndiririk. Onlar özlərini də, bizi - azərbaycanlıları da "türkman" adlandırırlar. Əslində, vaxtilə biz də türkman adlandırılmışıq. Bu etnonimin "ulu türk", "əsl türk" mənasında işləndiyini bildirən İbrahim Kafesoğlu, Ərşad Hürmüzlü və başqaları da göstərmişlər" (səh.13).

Bu cümlələrdən bir daha məlum olur ki, iraqlı soydaşlarımız-qardaşlarımız həm özlərini, həm də bizi türkman kimi tanıyırlar. İkincisi, professor özü də birbaşa bildirir ki, "əslində, biz də vaxtilə türkman adlandırılmışıq". Bu, o deməkdir ki, biz daşımış olduğumuz milli kimlik göstəricimiz olan "türkman" adımızı sonradan tarixin labirintvari dolaylarından keçərkən itirib, onu "azərbaycanlı" adı ilə əvəz eləmişik. Üçüncüsü, "türkman" adının-etnoniminin "Əsl türk", "Ulu türk" mənasını verməsi isə bir daha ona sübutdur ki, biz azərbaycanlılar nəinki sadəcə türk xalqıyıq, əsl türkü təmsil edən ulu türklərik. Və bütün digər türk xalqları da məhz bu ulu türkdən - türkmanlardan diferensiasiya nəticəsində qopub ayrılmışdır. Başqa cür ifadə etsək, müasir türk xalqlarının hamısı bir baba türk (tayfası) olaraq türkmanlardan törəyib-çoxalmış və ayrı-ayrı türksoylu qollara-budaqlara şaxələnmişlər.

**Ümummilli liderimiz Heydər Əliyev də "Qardaşlıq" dərgisinə müsahibəsində belə bir həqiqəti vurğulamışdır ki, "tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır" ("Qardaşlıq" dərgisi, İstanbul, N-8. 2000. səh.4).**

Bir məsələyə də toxunmaqla yazımı yekunlaşdırmaq istərdim. Suriya ərazisində, Colan bölgəsində də toplu halında soydaşlarımız yaşayır ki, onlar da türkman adı ilə tanınırlar. Ərəbləşdirilməyə məruz qalan Colan türkmanlarının 50-60 min nəfər arasında olduğu göstərilir. Ümumiyyətlə isə bu gün Suriyada 3,5 milyon türkman yaşayır ki, onların da 2 milyonu ana dilində danışa bilmir. Folklor araşdırıcısı Əli Şamil "Colan türkmanları" (folklor və etnoqrafiya örnəkləri) adlı kitabında ("Elm və təhsil", 2014) göstərir ki, "Suriyada türkmanları yaşadıqları bölgələr üzrə beş yerə ayırırlar. Lazkiyə bölgəsində yaşayanlara Bayır-Bucak türkmanları, Hələb və Rakka bölgəsində olanlara Hələb türkmanları, Hama və Humus bölgəsində yaşayanlara Hama və Humus türkmanları, Şam bölgəsində yaşayanlara Şam türkmanları, Colan təpələrində yaşayanlara isə Colan türkmanları deyirlər" (səh.46).

İstərdim ki, Əli Şamilin İbrahim Saleh adlı Colan türkmanına verdiyi "İbrahim bəy, Azərbaycan türklərinə Colan təpələrində, eləcə də Suriyada yaşayan soydaşlar haqqında bilgi vermənizi xahiş edirəm" sorğusuna cavabdan bir hissəni burada təqdim etməklə bir daha Azərbaycanımızdan uzaqlarda yaşayan dini bir, dili bir, qanı bir qardaşımızın kim olduğunun fərqinə varaq:

- Türkmanlar Suriyanın hər yerinə dağılıblar: ən uzaq qibləsindən Şəbələ qədər. Bunlar 1 milyondan çox, milyon yarıma yaxındır. Onların bəzisi dilini itirib. Ərəb olub, bəzisinin dili sağlam qalıb. Dilin həpsi Azərbaycan türkcəsi. Biz nerədə danışırıq, bizə deyirlər: "Azərbaycan türkcəsində danışırsınız?" Bununla fəxr edirik. Şükür Allaha, dilimiz bir, dinimiz bir, aramızda ayrılıq yox. Allah-təala bizə yol versəydi, görsəydik Azərbaycanı. Görsəydik Bakını, görsəydik oradakı qardaşlarımızı. Türklərin həpsi ilə də qonuşa bilsəydik, bilərdik haradan olduğumuzu...

...Bizim millət Azərbaycanda oturub, Azərbaycanın adətlərini alıb. Bizim yanımızda çox adətlər var (ki, bunlar) bildirir Azərbaycanda oturmağımızı..." (səh.68-69).

Suriyada Azərbaycandan təcrid olunmuş halda yaşayan və heç anadilli məktəb-filan görməyən bir türkman qardaşımızın danışığından onların babalarının bir vaxtlar "Azərbaycanda oturduqları" - yəni Azərbaycanda oturub-yaşadıqları bəlli olur. Danışıqları da türkman dili - "Azəri türkcəsi..."

Bir daha gördüyümüz kimi, vətəndən uzaqlarda yaşayan soydaşlarımız öz milli kimliklərini bildirən türkman adını öz üstlərində qoruyub saxlaya bilmişlər: İraq türkmanları, Suriya türkmanları, Colan türkmanları... Yaşadıqları yerlərin adları - ünvanları və milli mənsubiyyəti bildirən kimlikləri - türkmanlıqları birlikdə ifadə edilməklə harada yaşadıqlarını və milliyyətcə kim olduqlarını parolsayağı nişan verirlər ki, hələ varıq, hələ ki, yaşayırıq. Bəlkə, bu paroldan biz də özümüzə verəcəyimiz "biz hansı xalqıq?" sualının cavabını alaq?!.

**Şakir ALBALIYEV**



# May ayı toy ayıdır!

**Hələ 2014-cü ilin 1 mayında televiziyadan canlı yayım vasitəsilə etdiyim çıxışımda bu fikrimi səsləndirmişdim: May ayı toy ayıdır. Bakı və Bakı ətrafı ərazilərdə yaşayan əhalinin arasında düşmənlərimizin vaxtilə yaymış olduğu bir şayiəyə cavab olaraq söyləmişdim. Belə ki, mən hələ tələbə olarkən Bakıda təhsil aldığım dövrlərdə eşitmişdim ki, "may ayı boş aydır, ona görə də mayda toy eləməzlər". Düzü, o vaxtlar çox utancaq olduğumdan, bu tipli sözlərə o qədər də reaksiya verməmişdim. Heç düzü, bu ifadənin məğzinə də o qədər fikir verməmişdim. Çünki bu sözlər mənə anlaşılmaz görünmüşdü. Çünki bizim Qarabağ tərəflərdə həmişə gül-çiçək ayı olan may ayı həm də çal-çağırlı toylar ayı idi. Hətta rəhmətlik atam da həmişə deyərdi ki, Şakirin toyunu mayda eləyəcəm.**

Tarix elə gətirdi ki, 1993-cü ildə doğma yurdumuzdan məcburi köçkün düşdük, Bakı və Bakıətrafı ərazilərdə məskunlaşdıqdan sonra gördük ki, "boş ay" dedikləri may ayında Bakıda və eləcə də ətraf zonalarda toy eləmirlər. Yadıma tələbə vaxtı eşitdiyim sözlər düşdü. Biz eşitmişdik ki və həm də bilirdik ki, məhərrəmlik ayında toy-nişan eləməzlər, onda bədbəxtçilik olar, ailə quran gənclərin axırı yaxşı olmaz. Bunun da müəyyən səbəbi var. Çünki biz islam dininin daşıyıcıları olduğumuzdan, bir müsəlman kimi məhərrəmlik ayında şəhid olanların xatirəsinə ehtiram ələməti kimi bu ayda şadlıq eləmirik. Bu, məlum məsələdir bu, bir müsəlman kimi 72 şəhidimizə ildə bir ay yas saxlamağımızın göstəricisidir.

Bəs may ayı niyə "boy ay" hesab olunsun, gənclər nikaha girməsin? Nə səbəbə?

Hələ bundan başqa, bir orucluq-ramazan ayı deyilən mübarək ayımız var ki, onda da səhvən toy eləmirik. Niyə axı? Axı, 12 ayın sultanı olan mübarək Ramazan ayı elə mübarəkbadlıq ayıdır. Əslində, 12 ayın sultanı sayılan ramazan ayında toy edib evlənərlər ki, sevinc-sevincə qarışsın. Buna süni səbəblər gətirirlər ki, guya oruc olanlar orucunu pozub yemək yeyə bilməyəcəklər. Onsuz da restoran toylarımız saat 6-dan sonraya təyin olunur ki, o vaxtlardan sonra da iftar süfrəsi açılır və oruc tutanlar da orucların açıb çörək yeyirlər. Bu, belə... İkincisi, süni səbəb isə odur ki, toylarda şərab verilir və bu mübarək ayda spirtli içki içilməsi günahdır. Buna da cavab verirəm ki, əgər bir müsəlman kimi kimsə İslam dininin qoyduğu şərtlərə əməl edirsə və o cümlədən, spirtli içki də qəbul etmirsə, onsuz da o adam toyda içki içməyəcəkdir. İkincisi də spirtli içki içməyin günah olduğu təkcə məhərrəmlik, ya Ramazan ayı ilə məhdudlaşmır; bir müsəlman kimi içkini orucluqda da içsən günah qazanırsan, məhərrəmlikdə də, adi günlərdə də. Ona görə də Ramazan ayında toy eləməyib, içki verməyi növbəti aya saxlamaqla özümüzü günahlardan sığortalaya bilmərik. Yəni, Ramazan ayında içki verilməsinə görə toy eləməmək özü də bu baxımdan bir məntiqsizlikdir. Əgər içki içməyi günah sayırıqsa, o, hər zaman günahdır, yoxsa ki, yalnız orucluq ayında içməməklə günahlardan yaxa qurtarmaq olmaz. Bu məsələ də belə...

Deməli, Ramazan (orucluq) ayı ən mübarək ay olduğundan, bu ayda edilən toylar da ən mübarək toylardır. O ki qaldı məhərrəmlik ayına, bu, islam inancıdır ki, məhərrəm ayında nişanlananlar, ya toy eləyənlər xoşbəxt olmazlar. Bu inancı hələ mən ağlı kəsməz uşaq olandan, anam Qərənfilin də dilindən eşitmişəm. Sözümün canı odur ki, İslam dini kimi onun inancları da biz müsəlmanlara əzizdir, müqəddəsdir və bu dinin qoyduğu yolla hərəkət etməliyik. İnancdan qırağa çıxmaq, tabunu pozmaq olmaz. Yəni Məhərrəm ayında toy eləməməyin dini inanca söykənən bir əsası var.

Dinə bağlı, dini inanca bağlı, ümumən isə inancla bağlı məsələlərdə ehtiyatlı olmaq lazımdır və bu kimi məsələlərin əleyhinə getmək olmaz.

Elə bilirəm bu məsələyə də münasibətim bəlli oldu.

İndi gələk may ayının əsassız yerə "boş ay" hesab olunmasının üstünə. May ayında toy edilməməsinin nə bir dini, nə də bir mifoloji əsası yoxdur. Heç bir din mayda toy eləməyi qadağan eləmir. Heç bir mifoloji görüşdə də may ayında toy-izdivaca girmək yasaq sayılmır. Heç elmi baxışda da may ayının izdivac-evlənmə məqamına dair heç bir uyğunsuz yanaşma yoxdur. Hələ əksinə, təqdirətmə var.

İndi yavaş-yavaş fikirlərimizi şərh edək.

Nəyə görə bu əsassız "boş ay" söhbəti bir yalan olaraq Bakı və Bakıətrafı bölgələrəcən yeriyə bilib, amma daha uzaqlara-ucqarlara yeriyib gedə bilməyib?! Nahaq yerə demirlər: "Yalan ayaq tutar, amma yeriməz". Məhz Bakı və yaxın ətraf ərazilər yalanın ayaq tuta bildiyi yerlər olub, amma daha artıq yeriyə bilmədiyindən ucqar bölgələrə - Bakıdan çox-çox uzaqlara ayaq açıb gedə bilməyib. Bu, nə deməkdir?

Məlumdur ki, Bakı Beynəlmiləl şəhərdir, yəni müxtəlif dinlərin və millətlərin nümayəndələrinin yaşadığı şəhər. Belə çoxmillətli, çoxdinli qarışıq mühitdə, yəni hər kəsin hamını, yaxud hamının hər kəsi tanıya bilmədiyi ictimai ab-hava şəraitində isə hansısa bir panikanı-şayiəni yaymaq asan olur. Rayon, kənd yerlərində isə əksəriyyət bir-birini tanıdığından anormal söhbətləri, qeyri-ciddi məlumatları yaymaq, ötürmək elə də asan olmur. Çünki qeyri-dəqiq informasiyanın fərqinə varan camaat duyuq düşüb, həmin yanlış xəbəri yaya bilən adamın kim olduğunu soraqlayıb tapacaq və nəticədə yalan faş olaraq, şayiə yerindəcə iflsa olunacaq. Ancaq buna nisbətdə şəhər mühitində xaotik məqamdan yararlanan düşmən öz iftirasını, yalanını cəmiyyət içərisinə ötürməyə nail ola bilər. Məhz belə bir qeyri-sabit ictimai məkanda mənfur düşmənlərimiz olan ermənilər-haylar müsəlman kütləsinin içərisinə "may ayı boş aydır, bu ayda toy eləmək olmaz" tipli yanlış informasiyanı ötürüb yaymağı bacarmışdır. Bəs bundan düşmənlərin məqsədi nə olmuşdur sualının üstünə gələk.

Ötən yüzillikdə ermənilər xalqımıza qarşı dəfələrlə soyqırım aktı törətmişlər. "May ayı boş aydır, mayda toy eləməzlər" məzmunlu yanlış təbliğatın beyinlərə, düşüncəyə oturdulması isə xalqımıza qarşı hiyləgərcəsinə düşünülmüş soyqırım siyasətidir. Bu cür yanlış təbliğat soyqırım aktının "dinc yolla" - səssiz-səmirsiz aparılması üsuludur. Bir var ki, açıq-aşkar şəkildə fiziki güc, işgəncə yolu ilə dinc insanları qətlə yetirməklə həyata keçirilən soyqırım faktı, bir də var gözə görünməyən formada-yanlış təbliğat hesabına düşüncəni iflic, şikəst eməklə evlənmənin qarşısını alıb, bu izdivacdan doğulacaq insan artımının qarşısını almaq yolu ilə həyata keçirilən soyqırım forması.

Bəli, fiziki zorla qətləyetirmə hesabına xalqımıza qarşı törədilən soyqırım faciəsinin bir üsulu da "dinc yolla" xalqımıza tuşlanmış əks-təbliğatdan gələn zərbədir ki, gənclərimiz evlənməkdə bir ay da geciksinlər və soyumuzun davamçısı olan övladlarımızın dünyaya gəlməsinin müəyyən müddətdə qarşısı alınsın. Özü də hansı ay düşünülüb hədəf seçilib? May ayı. O may ayı ki, bu ayda gül gülü çağırır, bülbül bülbülü. Bu, obrazlı dillə o deməkdir ki, may (eləcə də bu aya qonşu olan mart, aprel ayları) ayı canlı və hətta cansız təbiətin də sevişmə ayıdır, güllər-çiçəklər də, (nəbatat aləmi də), quşlar da (heyvanat aləmi də) may ayında səs-səsə, ağız-ağıza verib öpüşüb-sevişirlər, meyvə yetişdirmək üçün ağacların çiçəkləri də bu ərəfələrdə tozlandırılır (mayalandırılır). Bu kontekstdən düşünəndə həm dəç o nəticə çıxır ki, bu ay(lar) bar-bəhrə vermək üçün ən əlverişli fəsildir. Canlı-cansız təbiət bu ərəfədə "sevib-sevilirsə" - artım verirsə, demək, əslində insanların da bu ay(lar)da sevişib evlənməsi ilə sağlam övladların dünyaya gəlməsi ən gözəl vaxtlardır. Hətta cansız bildiyimiz daş parçası da bu aylarda "bala verir" - qiymətli daş-qaş dünyaya gətirir. Dahi şairimiz M.Füzulinin bir misrasını xatırlayaq: "Sədəf su almayınca əbru-nisandan göhvər verməz". Nə deməkdir bu? "Əbru-nisan" sözünün tərcüməsi (mənası) aprel yağışı deməkdir. Dənizin təkində sədəf deyilən daşlar olur ki, o daşlar ildə bir dəfə özözündən göhvər adlı qiymətli daşa çevrilə bilirlər. Bu isə o zaman olur ki, aprel ayında dənizə yağış suyu dəyir və o məhsuldar aprel yağışının təsirindən dənizin dibindəki sədəflər göhvər kimi qiymətli daşa çevrilirlər. Deməli, aprel yağışı olmasa, həmin il dənizin dibindəki sədəfdən göhvər adlı inci alınmaz. Məhz aprel yağışı mayalayıcı (törədici) gücə malik olub, adi daşı da göhvər adlı incinin doğulmasına hamilə edir. İndi görün canlı və ali düşüncəli bəşər nəsli aprel-may aylarında sevişib-evlənsə, bu sevginin gücündən dünyaya necə də sağlam övladlar gələr. Hər bir ailənin xoşbəxtliyi isə birinci növbədə o ailədə doğulacaq sağlam uşaqlarla şərtlənir. Deməli, düşmən təbliğatının gələcəyimizə vuracağı soyqırım təhlükəsinin konturları aydın görünür. Bir ilimiz on iki aydır, onun da bir ayını - hələ bir aydan da çoxunu məhərrəmlik təziyəsilə bağlı alaraq toy eləmirik, bu, məlum məsələdir. Bundan sonra da yanlış olaraq bir ayı da Orucluq ayında özümüzün səhvimiz ucbatından toy eləmirik. Bunlara da əlavə olaraq düşmən təbliğatı nəticəsində "may ayında toy eləməmək" təşviqatı yüklənəndə, genofondumuzun artımına dəyəcək zərbənin miqyasını aydınlığı ilə görərik.

"May ayı boş aydır" deyib, onu "boş ay" kimi səciyyələndirməyin, yuxarıda da qeyd etdiyim kimi, bir daha gördük ki, nə elmi, nə dini, nə də mifoloji əsası vardır. Amma bir incə məqamı da bura əlavə edim ki, yazıda oxucu üçün heç bir boşluq - anlaşılmaz olan heç bir şey qalmasın. Hər hansı bir deyimin, deyimdən irəli gələn adətin, ənənənin folkloristik əsası-mifoloji kökü olub-olmadığını yoxlamağın bir yolu da, mənim fikrimcə, ucqar əyalətlərdə, kəndlərdə yaşayan əhali arasında həmin məsələyə dair ümumi bir baxışın-düşüncənin olub-olmadığını öyrənib-bilməkdədir. Əgər mayda toy etmək bizim xalqımıza yabançı olsaydı, onda həmin xalqın bir nümayəndəsi kimi mənim atam öz böyük oğlu olan mənə mayda toy eləməyi nəinki arzulamazdı, heç eyninə belə gətirməzdi. Çünki atam el adətlərinin-ənənələrinin və inanclarının bilicisi və daşıyıcısı idi. İkincisi, Qarabağ-Zəngəzur bölgəsi, eləcə də digər bölgələrimiz xalqımızın ruhunun beşiyidir; madam ki, o beşikdə doğulan, yaşayan camaat ta qədimdən bu günəcən güllü-çiçəkli may ayında toy mağarları qurub, gənclərini evləndiribsə, deməli, bu, may ayını "boş ay" kimi qələmə verməyin heç bir mifoloji (eləcə də dini və elmi) cəhətdən əsası olmadığının əyani göstəricisidir. Dini-mifoloji və elmi qənaətlərdən gələnən nəticə isə bizə qətiyyətlə belə bir fikir səsləndirməyə əsas verir ki, deyək: May ayı toy ayıdır!

**"XUDAFƏRİN"**

# Xalça sexinin inşasına başlanılıb







Qəzetimizin baş redaktor müavini Hidayət Hümbət oğlu ilə şair dostumuz Mirzə Mirimlinin oğlunun böyük toy məclisindən çıxıb, Biləsuvar rayonu ərazisində salınmış məcburi köçkün qəsəbələrinə baxış keçirdik. 4 saylı qəsəbə ərazisində böyük bir ərazidə qazıntı işlərinin aparıldığını və teodolitlə yer səthinin coğrafi relyefinin quruluşuna dair müşahidələrin aparıldığını diqqətimiz çəkdi. O saat bildik ki, nəsə ciddi bir obyektin inşasına başlanılıb. Yaxınlaşdıq. Maraqlandıq. Məlum oldu ki, "El-Seym" İnşaat Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaat briqadasının işçiləridirlər. "Azərxalça" ASC-nin sifarişi ilə məcburi köçkünlər üçün xalça sexinin tikintisinə başlanılıb.

Yadıma 6-7 il qabaq Bakı şəhərində Xalça muzeyində keçirilən elmi-praktik konfransdakı çıxışım düşdü. Mən o zaman zəngin və qədim Qarabağ xalçaçılıq məktəbindən danışdım. Bu xalça toxuma ənənəsinin bu gün də yaşadılmasının zəruriliyindən söz açdım və qəti bir təklif irəli sürdüm: Biləsuvar rayonu ərazisində kompakt şəklində məskunlaşan Cəbrayıldan olan məcburi köçkünlər arasında xalça toxuya bilənlər var. Həmin ərazidə xalça sexi tikilib istifadəyə verilsin, həm Qarabağ - Cəbrayıl xalçaçılıq ənənələri davam etdirilib yaşadılsın, həm müəyyən sayda insanlar iş yerilə təmin edilmiş olsun, həm də xalçaçılıq elə bir sahədir ki, burada gəliri çıxarını ödəyəcək, özləri özlərini dolandıra biləcəklər...

Bu cür izahat xarakterli çıxışım maraqla qarşılandı və təqdir edildi. Akademik Teymur Bünyadov, Xalça muzeyinin o vaxtkı direktoru Röya xanım Tağıyeva və başqaları bu cür təklifi çox yüksək dəyərləndirdilər və gələcək layihələrə belə bir planın salınacağını vəd etdilər.

Onu da qeyd edim ki, 2016-cı ildə Kamal müəllim rayonumuza Başçı gələndə, onunla söhbət zamanı da vaxtilə belə bir təklifimin olduğunu demişdim.

İndi "Azərxalça" ASC-nin Biləsuvar filialının məhz bizim məcburi köçkünlərin yaşadıqları ərazidə xalça sexinin inşasına başlaması məni çox sevindirdi və ürəyimdən keçirdim ki, deyəsən çoxdankı arzum, təklifim artıq reallığa çevrilir. Kaş bütün arzularımız gerçəkləşsin.

Hazırda təməl işi gedir və iş icraçısı Cabir Cavadov, fəhlə Əvəz Abbasov, operator Elnur Tapdıqov, İlqar Əsgərov, bölgə üzrə sahə rəisi İlyas Quliyev bu təməltökmə işlərində cani-dildən çalışırlar. Onlarla söhbətimiz əsnasında öyrəndik ki, cari ilin oktyabr-noyabr aylarına xalça sexinin tikilib təhvil verilməsi planlaşdırılır.

"Biz deyən olmasın, Allah deyən olsun" deyib, işçi briqadasına işlərində uğurlar arzulayıb, sağollaşdıq.

**Şakir ƏLİFOĞLU**







**İsmayıl İmanzadə**
**şair, Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin rəhbəri**

## SALAM, COCUQ MƏRCANLIM

Salam, yuvam-beşiyim,
Doğma evim-eşiyim
Cocuq Mərcanlı kəndim.
Anam Azərbaycanın,
Qarabağın-Cəbrayılın
Qeyrət-hünər timsallı
Zəfər ünvanlı kəndim.
Ulu yurd yerimizin
Varlığından söz açan
Yaşıl talam-torpağım.
Araz səsli-sədalı
Dalğalanan bayrağım.
Xalqımın haqq səsisən,
Möhtəşəm dayağın var.
Hər eldə, hər obada
Müjdən var, sorağın var.
Şükürlər olsun, indi
Gur yanan ocağın var.
Milyonlarla insanın
Xeyir-dualarında
Dikəltdikcə qəddini
Addım-addım boy atdın.
Doğma ata elimin-
Çiçəyimin-gülümün
Varlığını yaşatdın.
Sən Aprel döyüşündə
Qazandığım Zəfərin
Şahidi-yol yoldaşı.
Sən Lələ təpəsində
Düşmən bağrını yaran
Cəsur əsgər hünərli
Yurd daşı, Vətən daşı.
Səndən başlayır Vətən-
Qarabağa üz tutan
Qayıdış yolum mənim.
Köksünə sığınmışam,
Şaxələnsin hər yana
Qoy, sağım-solum mənim.
Sənə həyat bəxş edən-
İsmini şan-şöhrətli
Tariximə nəqş edən
Qəhrəmanlar var olsun!
Hamımız deyirik ki,
Tanrı sənə yar olsun!
Qədəmləri sayalı
Cocuq Mərcanlım mənim.
Gecələri çıraqban,
Sabah ünvanlım mənim.
Doğma yuvam-beşiyim,
Yazın-qışın mübarək!
Alqış adına, alqış-
Qayıdışın mübarək!

*09.09.2017*

# DƏNLİ VƏ TEXNİKİ BİTKİLƏRİN YANĞIN TƏHLÜKƏSİZLİYİ

*(Əvvəli səh. 2-də)*

**Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyi tədbirləri**

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra zəruri tədbirlər təxirəsalınmadan həyata keçirilməlidir. Belə ki, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr aralıda tayaya vurulmalıdır.Taxıl yetişən zaman cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədi ilə xüsusi keşikçilər ayrılmalıdır Biçilmiş ot və taxıl həmin sahədən kənara daşınmalıdır.

**Məhsul yığımı dövründə yanğın təhlükəsizliyi tədbirləri**

Məhsul yığımı dövründə bir sıra zəruri yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilməlidir. Biçin aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədi ilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriki söndürüldükdən sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir.

Yığımda iştirak edən texnikanın diyircəklərinin və digər sürtülən hissələrinin qızmasının qarşısını almaq məqsədi ilə onların vaxtlı-vaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların, digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlı-vaxtında təmizlənməlidir.Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralıda olmalıdır. Xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır. Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir və o, böyük zəhmət hesabına yetişdirilir.

**Yanğın baş verərsə...**

Taxıl zəmisində, ot sahələrində yanğın baş verərsə, dərhal iş dayandırılmalı, maşının fiti və metal cismlərə zərbə vurmaqla ətrafdakılar məlumatlandırılmalı və dərhal mövcud yanğınsöndürmə vasitələri ilə (odsöndürən, motopompa, su, süpürgə, keçə və s.), eləcə də yanan yerə torpaq atmaqla yanğını söndürməyə çalışmaq lazımdır. Əgər yanğının qarşısı alınmazsa, təcili olaraq 112 və ya 101 nömrəli telefonlara zəng etməklə yanğından mühafizə hissəsinə məlumat verilməlidir. Yanğının taxıl zəmisində genişlənməsinin qarşısını almaq məqsədilə yanan sahənin ətrafını kotanlı traktor vasitəsi ilə şumlayaraq yanğına qarşı ara məsafəsi yaratmaq lazımdır. Ara məsafəsi yaratmaq məqsədilə aparılan şumlama zamanı yanğının yayılma sürəti və küləyin istiqaməti nəzərə alınmalıdır.

Uçan qığılcımları və küləşin yanan hissəciklərini söndürmək üçün şumlanmış qurşaq boyunca süpürgə ilə təchiz edilmiş adamlar düzmək lazımdır.

**Yanğın təhlükəsizliyini təmin etmək üçün...**

Kənd təsərrüfatı məhsullarının, o cümlədən taxılın, digər dənli və texniki bitkilərin yanğından qorunması tək yanğın təhlükəsizliyi qurumları əməkdaşlarının deyil, eləcə də təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin, məhsul yığımında iştirak edən bütün əməkçilərin ümdə vəzifəsi olmalıdır.

Taxıl və ot yığımı ərəfəsində bütün kənd təsərrüfatı texnikaları yanğına qarşı hazırlanmalı, ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir.

Dənli və texniki bitkilərin yığımında iştirak edən bütün texnikaların yanğın təhlükəsizliyi qaydalarının tələblərinə uyğun olması hər bir təsərrüfatda təşkil olunmuş xüsusi komissiya tərəfindən Dövlət Yanğın Nəzarəti Xidmətinin yerli qurumlarının əməkdaşlarının iştirakı ilə birgə yoxlanılmalıdır.

Mühərriki akkumlyatorla işə salınan kombayn və traktorların elektrik naqillərinin etibarlı izolyasiyası olmalı, naqillər sürtünmədən və mexaniki zədələrdən qorunmalıdır.

Biçində iştirak edən texnikaların naqilləri gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və yaxud plasmas borularla mühafizə olunmalıdır.

Dənli və texniki bitkilərin yığımında iştirak edən bütün texnikaların atqı boruları qığılcımsöndürənlərlə təmin edilməli, hava verən turbinli mühərriklər istismara yararlı olmalıdır.

Taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən, xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda olmalıdır.

Taxıl zəmilərində, xırmanlarda, ot tayaları yığılan yerlərdə siqaret çəkilməməlidir!

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar şəxslər tərəfindən işə salınmasına, onun yedəyə alınmaqla və yüksəklikdən buraxılmaqla işə salınmasına, yanacaq və yağların sızmasına yol verilməsinə, işdən sonra texnikanın sahələrdə saxlanmasına, kombaynlarda əlavə yanacaq və yağlama materiallarının saxlanılmasına yol verilməməlidir.

**Taxıl zəmilərində kibrit yandırmaq, açıq oddan istifadə etmək olmaz.**

Taxıl zəmiləri kombaynın gündəlik yığım normasına uyğun olaraq sahələrə bölünməli, bu sahələrin arası 8 metr enində biçilməli və həmin zolaq mütləq ən azı 4 metr enində şumlanmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən kənar edilməlidir. Taxıl yetişən zaman yanğın təhlükəsizliyinə məsul şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədilə xüsusi keşikçilər ayrılmalıdır.

Tarla düşərgələrində, taxıltəmizləmə xırmanlarında, ot və küləş yığılan yerlərdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalıdır.

Biçilmiş ot zəmilərdən ən azı 30 metr məsafədə tayalara vurulmalı, ot tayaları bir-birindən ən azı 20 metr yanğına qarşı ara məsafəsi olmaqla qurulmalıdır.

Taxıl zəmisinin yaxınlığında tonqal qalamaq, gecə vaxtı maşınların yanacaqla doldurulması qadağan edilməlidir.

Tarla düşərgələri, taxıl təmizləmə xırmanları, ot və küləş tayaları yığılan sahələr ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir.

Zəmilərin yaxınlığında uşaqların kibritlə oynamasına, odla dəcəllik etməsinə yol verilməməli, tezalışan məhsullar, o cümlədən yanacaq və sürtgü materialları yerə tökülməməlidir.

Taxıl yığımı zamanı kombayn, traktor və otbiçən, eləcə də taxılı daşıyan avtomaşınlarda yanğın baş verərsə, yanğını təcili olaraq söndürmək və texnikanı taxıl zəmisindən çıxarmaq lazımdır. Yanğın zamanı kombaynın küləş yığılan hissəsindən küləşin boşaldılması kombayn taxıl zəmisindən çıxarıldıqdan sonra həyata keçirilməlidir.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir və o böyük zəhmət hesabına yetişdirilir.

Elin bu əvəzsiz sərvətini oddan qoruyun!

**Qarabağ regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

# Astan Nuşirəvan oğlu Şahverdiyev



**Azərbaycan ictimaiyyətinə və elminə ağır itki üz vermişdir. Milli Məclisin deputatı, tanınmış ictimai xadim və texnika elmləri doktoru, professor Astan Şahverdiyev aprelin 15-də ömrünün 72-ci ilində vəfat etmişdir.**

Astan Nuşirəvan oğlu Şahverdiyev 1947-ci il fevralın 15-də Füzuli şəhərində anadan olmuşdur. O, 1953-1964-cü illərdə Cəbrayıl rayonunun Böyük Mərcanlı kənd orta məktəbində təhsil almış, 1970-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu, 1976-cı ildə isə Azərbaycan Politexnik İnstitutunu müvəffəqiyyətlə bitirmişdir.

Astan Şahverdiyev elmə böyük maraq göstərmiş, 1981-ci ildə istilik fizikası üzrə namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. O, 1992-ci ildə Moskva Energetika İnstitutunda doktorluq dissertasiyası müdafiə edərək texnika elmləri doktoru alimlik dərəcəsini, 1994-cü ildə isə professor elmi adını almışdır. Astan Şahverdiyev 1995-ci ildə Nyu York Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, dünyanın aparıcı jurnallarında elmi məqalələrlə çıxış etmişdir. O, 2001-ci ildən ömrünün sonunadək Azərbaycan Texniki Universitetinin "İstilik və soyuqluq texnikası" kafedrasının müdiri olmuşdur. 300-dən çox elmi məqalənin, 2 monoqrafiyanın, 2 ixtiranın, 1 patentin və 10 dərslik və dərs vəsaitinin müəllifidir.

Astan Şahverdiyev yeni istedadlı gənc alimlərin yetişməsinə öz layiqli töhfəsini vermişdir. Tanınmış alim 1998-2003-cü illərdə BMT-nin Ətraf mühit və inkişaf proqramının Azərbaycan ofisində koordinator olmuş, dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq konfrans və simpoziumlarda Azərbaycan elmini layiqincə təmsil etmişdir. O, "İstilik və soyuqluq texnikası" kafedrasının nəzdində "Alternativ və bərpa olunan enerji mənbələri" elmi-tədqiqat laboratoriyasının elmi rəhbəri idi.

Astan Şahverdiyev Yeni Azərbaycan Partiyasının üzvü kimi ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etmiş, seçicilərin etimadını qazanaraq müstəqil Azərbaycanın Üçüncü, Dördüncü və Beşinci çağırış Milli Məclisinin deputatı seçilmişdir. O, parlamentin qanun yaradıcılığı işində, ölkəmizdə həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsində, qanunverici orqanın beynəlxalq əlaqələrinin inkişafında yaxından iştirak etmiş, Azərbaycan-Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olmuşdur.

Tanınmış alim və ictimai xadim Astan Şahverdiyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti

RİH-nin əməkdaşı Vilayət Hidayət oğlu Cabbarova, anası

**Rüstəmova Tamella Rizvan qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Tariyel Abbaslıya, anası

**Abbasova Dilarə Mürsəl qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Müdafiə Nazirliyinin əməkdaşı polkovnik-leytenant Ramil Səfərova, nənəsi

**Səfərova Süsən Savalan qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Xudafərin" qəzetinin baş redaktoru Şakir Albalıyev, tanınmış jurnalist

**Raqub Məhəmməd oğlu Mustafayevin**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti

Şamıyev Şamo Abbasqulu oğlu, Möhbalıyev Bəybala Səfəralı oğlu, Vəliyeva Məryəm Şükür qızı, Vəliyeva Zərnişan Nübarək qızı, Abdullayev Mehdi Həmzə oğlu, Əzizov Məhəmməd Alı oğlu, Rəhimova Məleykə Mustafa qızı, Mahmudova Fatma Murtuza qızı, Məmmədov Eldəniz Vəli oğlu, Hüseynov Balakişi Xankişi oğlu, Balayev Məzahir Zülfəli oğlu, Cəfərov Bayram İsa oğlu, Allahverdiyev Məhəmmədəli İmanqulu oğlu, Rüstəmov Qənbər Kamran oğlu, Əhmədova Səriyyə Qurban qızı, Surxayov Rəzzaq Hacı oğlu, Mehralıyev Salman Balakişi oğlu, Bağırova Gülüstan İsaxan qızı, Məhərrəmov Qafar Cəfər oğlu, Heydərova Həqiqət Həsən qızı, Səfiyev Musa Humay oğlu, Həsənov Fərrux Hüseyn oğlu, Məmmədov Ramiz İmamqulu oğlu, Mehdiyeva Təzəxanım Ağamalı qızı, Həsənov Ağa Xanlar oğlu, Məmmədov Asəf Cümşüd oğlu, Əhmədov Zərif Səlim, Məmmədov Mehdi Şərif oğlu, Mahmudova Nəcibə Ərşad qızı, Zamanov Şamil Xanlar oğlu, Hüseynova Şöhlə Məhəmmədəli qızı, Quliyev İsmayıl Cəmil oğlu, Quliyeva Tutu Əhliman qızı, Fərhadov Sabir Allahverdi oğlu, Mehralıyeva Ziba Gəncalı qızı, Muxtarov Muxtar Oruc oğlu, Mirkişiyev Sərməst Muxtar oğlu, Mirkişiyev Nadir Sərməst oğlu, Hüseynova Arzu Hüseyn qızı, Səfərova Zərifə Səfər qızı, Bağırova Xanım Zaman qızı, Baxşalıyev Cəmil Kalbalı oğlu, Əsədova Tubu Camal qızı, Quliyev Məhəmməd İmran oğlu, İbadov Əvəz Şamil oğlu, Ağayeva Tahirə Dadaş qızı, Sevdalıyeva Şərəf Sədətqulu qızı, Nağıyeva Qunça Əmir qızı, Qaraşova Sərəngül Qəhrəman qızının **vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
Şakir Əlif oğlu ALBALIYEV

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə "Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Açıq Səma" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 1389**
**Tiraj: 1000**